# Elçin



# Ədəbiyyat və Cəsarət Tərcümanı Abbas Zamanov



**Böyük alim, Azərbaycan elminin, ədəbiyyatının, mədəniyyətinin inkişafında öz fədakar əməyi ilə əvəzsiz rol oynamış Abbas Zamanovun xidmətləri unudulmazdır.**

**Azərbaycan ədəbiyyatının bir çox ölkələrdə tanınması və təbliğ olunması Abbas Zamanovun adı ilə bağlıdır.**

**Şübhə yoxdur ki, Abbas Zamanovun yaratdığı əsərlərdən milli mədəniyyətimiz gələcəkdə də bəhrələnəcəkdir.**

***Heydər ƏLİYEV***

**Elçin**

# Ədəbiyyat və cəsarət tərcümanı - Abbas Zamanov

**Bakı – "GƏNCLİK" 2016**

Redaktor: Mirmusa Seyidov

**Elçin.**
**"Ədəbiyyat və cəsarət tərcümanı - Abbas Zamanov"**
**Bakı, "Gənclik" nəşriyyatı, 2016, 142 səh.**

Kitabda görkəmli xalq yazıçımız Elçinin Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi Abbas Zamanov haqqında xatirələri və məqalələri çap olunmuşdur

Ümid edirik ki, kitab oxucular tərəfindən rəğbətlə qarşılanacaqdır.

**ISBN: 5-8020-1793-7**

ELÇİN
"Gənclik" nəşriyyatı

# ƏDƏBİYYAT VƏ CƏSARƏT TƏRCÜMANI

(Unudulmaz professor Abbas Zamanov haqqında bir neçə söz)



Artıq əlçatmaz, ünyetməz bir uzaqlıqda qalmış 1960-cı ilin mart ayı yadıma gəlir. Novruzdan sonrakı günlərdən biri idi.

Elmlər Akademiyasının «İstiqlaliyyət» küçəsindəki binasında Səməd Vurğunun vəfatının beşinci ildönümü münasibətilə xatirə gecəsi keçirilirdi.

O zaman mən orta məktəbin 10-cu sinfində oxuyurdum və bir gənclik həvəsi, marağı, hətta hərisliyi ilə Bakıdakı ədəbi məclisləri izləyirdim.

Həmin mart günü Səməd Vurğunun xatirə gecəsində mən də Akademiyanın böyük iclas zalında orta sıralardan birində oturmuşdum.

Xatirə gecəsini akademik Məmməd Arif aparırdı.

Məruzəçi İlyas Əfəndiyev idi.

Xatirə gecəsi açıq elan olundu, məruzə oxundu, bir neçə çıxış oldu və növbəti söz parterdən əlini qaldırıb çıxış etmək istəyən Abbas Zamanova verildi.

O vaxta qədər mən Abbas Zamanovu çox görmüşdüm və bu alçaqboylu, dolubədənli, ağır, sanballı kişi səhnəyə qalxıb xitabət kürsüsünün arxasına keçəndə də, mənim heç vəchlə ağlıma gəlməzdi ki, indicə eşidəcəyim çıxış sovet Azərbaycanının 70 illik tarixində ən cəsarətli çıxışlardan biri olacaq, illər, hətta onilliklər bir-birini əvəz edəcək, o çıxış isə yaddan çıxmayacaq.

«Qardaş olub Hayastan Azərbaycan!» kimi süni mahnıların sədaları altındakı yalançı «xalqlar dostluğu» şüarçılığı mühitində Abbas Zamanovun o axşamkı çıxışı sosialist Bakısının XX partiya qurultayından bir neçə il keçdikdən sonra ətalət içində mürgüləyən ictimai həyatında günün günortaçağı çaxan qəfil ildırım kimi bir şey oldu. Sonralar isə məlum oldu ki, o çıxış Azərbaycanın taleyində də mühüm rol oynayıb.

Abbas müəllim həmin odlu-alovlu çıxışında qədim Azərbaycan diyarı Naxçıvanın üzərini qara buludların almasından, erməni millətçilərinin Naxçıvanı Azərbaycandan qoparmaq məqsədilə ciddi fəaliyyətə başlamalarından, Moskvada onların havadarlarının olmasından danışdı və rəyasət heyətində oturub özünü tamam itirmiş (sabah izahat vermək tələb olunacaqdı!) bir vəzifəlinin:

-“Yoldaş Abbas Zamanov, biz bura Səməd Vurğunun xatirəsinə toplaşmışıq!” sözlərinə Abbas Zamanovun:

-Bəli, biz bura Səməd Vurğunun xatirəsinə toplaşmışıq və Səməd Vurğun da bu gün sağ olsaydı, bax, bu xitabət kürsüsündən deyərdi: «Naxçıvan qədim Azərbaycan torpağıdır! Qara niyyətlərinizdən əl çəkin, daşnaklar! Naxçıvan heç zaman ermənilərin olmayacaq!»

Və Abbas Zamanov xitabət kürsüsündən düşüb parterdə öz yerində oturdu.

Elə bil ki, bütün zal hipnoz olmuşdu.

Və birdən o hipnoz keçdi, alqışın hərarəti bütün zalı, hətta bütün o böyük daş binanı titrətdi.

Mülayim bir adam olan rəhmətlik Arif müəllim rəyasət heyətində ayaq üstə dayanmışdı və zalın sakitləşməyini gözləyirdi. Zal isə sakitləşmək bilmirdi. Nəhayət, Arif müəllimin səsi eşidildi:

-Abbas Zamanov buradakı çıxışında hissə qapıldı. Mən inanıram ki, o özü də bu çıxışından peşiman olacaq.

Bu zaman Abbas müəllim yerindən qışqırdı:

-Çətin!

Və bu bir kəlmə sözə görə yenidən qopan alqış yenə aləmi lərzəyə saldı.

O gecə o, 10-cu sinif şagirdinin də daxilinə, yəqin ki, səbəbini heç özünün də dəqiq izah edə bilməyəcəyi bir qürur, fəxarət, igidlik hissiyyatı dolmuşdu.



**ABBAS ZAMANOV**

Abbas müəllim, rahat yat! Sən bütün məhrumiyyətlərə dözərək mümkün olmayan bir zamanda, quş quşluğu ilə uçaraq sərhədləri keçməyə cəsarət etmədiyi bir vaxtda Şimallı-Cənublu qardaşlar arasında körpü saldın. Onları bir-biriləri ilə yaxınlaşdırdın, qovuşdurdun. Buna görə hamımız sənin cənazən qarşısında baş əyirik. İndi sənin cənazən qarşısında biz onunla təskinlik tapır, çox şükür edirik ki, sən qardaşların, həqiqətən, qovuşduğu günü də gördün. Nisgilli getmədin. Mürşidi-kamilimiz, əziz qardaşımız, rahat yat! Qəbrin nurla dolsun!

**Cavad HEYƏT**
**(İran)**



Atatürk Universitesi
Fen-Edebiyat Fakültesi
Araştırma Kitablığı
Prof.Dr. Abbas Zamanov`un
BAĞIŞ KİTABLARI
KATALOĞU
Hazırlayanlar
Dr.Habib İDRİSİ Y.Doç.Dr. Turgut KARABEY
ERZURUM-1994

**Professor, doktor Abbas Zamanovun Bağış kitabları kataloqu**
**Hazırlayanlar: H.İdrisi, T.Qarabəy**
**Ərzurum-1994, 221 səhifə**



*Abbas Zamanov və Əhməd Şmide (Almaniya)*

Abbas Zamanovun bir vətəndaş olaraq gördüyü ən böyük iş 1960-cı illərdə Naxçıvan Muxtar Respublikasını Azərbaycandan ayırıb Ermənistana verməyə qalxanların hesabını pozması idi. İlahi, bu nə cəsarətdi?!

***H. Əhməd Şmide***
***(Almaniya)***



***Abbas Zamanov, Əziz Şərif və Hüseyn Cavidin qardaşı Şeyx Məhəmmədin oğlu Həmid Rasizadə. Şəkil 1950-ci illərdə Naxçıvan şəhərində Şeyx Məhəmmədin ailəsinin qonağı olarkən çəkilmişdir.***




**Abbas Zamanov. "Bu dünyadan Rəsul Rza gəlib keçdi".**
**Elmi məsləhətçi: Bəkir Nəbiyev. Toplayanı, tərtib edəni və müqəddimə müəllifi: Orxan Seyidov.**
**Redaktor: Ağakərim Əzimov.**
**Bakı, "MBM" – 2008, 72 səh**



**İlyas Əfəndiyev**
**Xalq yazıçısı**

**İlyas Əfəndiyev Abbas Zamanovun xətrini çox istəyirdi və çox da həyəcanla, daxili bir ağrı-acı ilə o çıxışdan sonra Abbas müəllimin aqibəti ilə maraqlanırdı və demək olar ki, hər gün telefonla ona zəng edib hal-əhval tuturdu.**

**Xeyli sonralar, 60-cı illərin axırlarında mən aspirant olduğum zamanlar Abbas müəllimlə aramızda səmimi bir münasibət yarananda, Abbas müəllim deyirdi:**

**-O vaxt yaxın dostların, tanışların çoxu küçədə məni görəndə qaçıb gizlənirdi. Ancaq İlyas hər gün mənə zəng eləyib kefimi soruşurdu. Rastlaşanda da mənimlə «demonstrativ» görüşürdü.**

**Bu «demonstrativ» sözünü Abbas müəllim necə demişdisə, elə də yazıram.**



**İlyas Əfəndiyev**
**Xalq yazıçısı**



**Digər böyük alimlərimizin xidmətlərini azaltmadan onu deyə bilərəm ki, tanıdığım insanlardan ikisinin - Qulam Məmmədlinin və Abbas Zamanovun gördükləri iş hərəsi bir cəhətdən - bütöv bir elmi institutun gördüyü işə bərabər sayıla bilər.**

**Anar**
**Xalq yazıçısı**



**Rəsul Rza, Cəfər Cəfərov, Anar**



Dünyanın bir çox şəhərlərinə tez-tez gedirəm. Müxtəlif unversitetlərin, kitabxanaların, kolleclərin əməkdaşları ilə, tanınmış professorlar və tədqiqatçılarla fikir mübadiləsi aparıram və çox halda Abbas Zamanovun əvəzsiz xidmətlərinin hörmət və ehtiramla xatırlandığının canlı şahidi oluram.

**Turxan GƏNCƏYİ**
**London Unversitetinin professoru**



**İsa Həbibbəyli**
**Akademik**

***Abbas Zamanov Azərbaycanda yaşayan dünya adamı idi. Demək olar ki, hər ay, bəlkə də hər həftə Abbas müəllim dünyanın müxtəlif ölkələrindən məktublar alırdı. Eyni zamanda, tez-tez Bakıdan, Abbas Zamanovun ev ünvanından uzaq-yaxın ölkələrə məktublar, bağlamalar yola salınırdı. Əslində Abbas Zamanov da özünəməxsus bir «Vətən» cəmiyyəti idi. Xalq yazıçısı Elçin Abbas Zamanovun fəaliyyətini «Vətən» cəmiyyətinin işi ilə əlaqələndirməklə həm böyük ehtiram bəslədiyi müəlliminə hörmət və diqqətini ifadə etmiş, həm də rəhbərlik etdiyi qurumun işini bu yolla bir daha canlandırmışdır. Beləliklə, Türkiyədə Ərzurum Atatürk Universitetinin kitabxanasında «Abbas Zamanovun bağış kitablığı» adlı xüsusi kitabxana meydana gəlmişdir. Üç mindən çox kitabı əhatə edən həmin kitabxana indi də qardaş Türkiyədə, sözün əsl mənasında, Azərbaycanşünaslıq kitabxanası kimi səmərəli fəaliyyət göstərir. Amerikada, Avropa ölkələrində, Türkiyədə, İranda, İraqda, habelə Özbəkistanda, Türkmənistanda, Gürcüstanda Abbas Zamanovun Azərbaycan ədəbiyyatı və mədəniyyətinin tanıdılması sahəsində uzun illər boyu gördüyü misilsiz işlər, çəkdiyi böyük zəhmətlər müstəqil bir institutun, yaxud böyük bir elmi qurumun fəaliyyətinə bərabərdir.***

**İsa HƏBİBBƏYLİ**
**Akademik**




**Qəzənfər Paşayev. Abbas Zamanov.**
**Redaktor Mirmusa Seyidov.**
**Bakı, "Gənclik" – 2016, 132 səh**



**Abbas müəllim siyasətçilərə, dövlət xadimlərinə xalqa göstərdiyi xidmətə görə qiymət verirdi. Bu onun vətənpərvərliyindən irəli gəlirdi. Məlumdur ki, son otuz ildə Bakıda çoxlu gözoxşayan qədim Şərq və müasir Qərb memarlıq üslubunu birləşdirən binalar tikilib. Bu binaların yanından keçəndə mütləq deyərdi: «Bunu Heydər Əliyev tikdirib». Bir dəfə Moskva prospektində ayaqqabı fabrikinin yanından keçəndə maşını saxlatdırdı, binanın fasadına baxaraq: «Halal olsun, Heydər Əliyev bunu da tikdirib. Qəzənfər, O, böyük şəxsiyyətdir. Nə yaxşı ki, bunu sən də duyur və qiymətləndirirsən» - dedi.**

**Qəzənfər PAŞAYEV**
**Professor.**




**Əliyev Kamran, Abbas Zamanov olmasaydı....**
**Bakı, "Elm" – 2011, 138 səh.**



***Abbas Zamanov haqqında düşünəndə Cəlil Məmmədquluzadənin Eynəli bəy Sultanova yazdığı məktubundan bir cümləni xatırlayıram: «Yəqin bilirəm ki, sən olmasaydın mən də qeyri-sadəcə kənd müəllimlərinin içində yaddan çıxmışdım».***

***Doğrusu, Abbas Zamanov olmasaydı, mən də qeyri-sadəcə kənd müəllimləri içində yaddan çıxmışdım.***

***Kamran ƏLİYEV***
***professor, əməkdar elm xadimi***



***1950-ci illərin axırı, ya 1960-cı illərin əvvəlləri idi. O zamankı Sovet İttifaqı Kommunist Partiyası MK-nın birinci katibi N.Xruşşovun Azərbaycana gəlməsi ərəfəsi idi. Ermənilər Naxçıvanı ələ keçirmək iiçün dəridən-qabıqdan çıxırdılar. Nümayəndələri Bakıya gəlir. Hətta Moskvada Sovet dövləti qarşısında məsələ qaldırırlar. Hətta Moskvadan müəyyən razılıqlar verilmişdi. Bunun qarşısını almaq lazım idi.***
***Məhz bu zaman Abbas Zamanov mübarizə meydanına gəldi.***

***Yusif SEYİDOV,***
***professor***



***Seyfulla Şamilov***

**Çox adam xeyrə-şərə dəvət etməyə belə qorxurdu. Bir gün Uşaqgəncnəşrin baş redaktoru Seyfulla Şamilovla küçədə rastlaşdım. Dedi bir mənə dəyərsən. Getdim yanına. Durub qapını bağladı, seyfdən bir qalın kitab çıxarıb dedi:**

**- Bilirəm, pula ehtiyacın var. Bu kitabı tərcümə elə. Öz adımdan çap edəcəyəm, qonorarını da verəcəyəm sənə.**

**Gənclər təşkilatının işi haqqında kitab idi. Çox asan tərcümə olunurdu. İşdən sonra birbaşa makinaya diktə etdim, aparıb verdim. İki-üç aydan sonra yenə zəng vurub məni çağırdı. Kitab çapdan çıxmışdı. Mənə xeyli pul verdi. Həmin pulla ailəmi yarım il gen-bol dolandıra bilərdim. Dedi apar xərclə. Bir daş altda, bir daş üstdə.**

**Abbas ZAMANOV**



**Cəfər Cəfərov**

***Abbas müəllim özü mərd və dostluqda möhkəm adam idi. Vaxtilə Cəfər Cəfərov «kosmopolit» kimi ifşa edilib təqibə məruz qaldığı vaxt onun ən çox qayğısına qalmış adam Abbas Zamanov olmuşdu və bunu mən dəfələrlə Cəfər müəllimin öz dilindən eşitmişdim.***

***Abbas müəllim də təqibə məruz qalanda, bir sıra dostları ona qahmar çıxmışdı, amma əksəriyyət ondan gen gəzirdi...***



**Şamil Qurbanov**
**professor**

*Universitetin III kursunda oxuyurdum. O zaman mən ərəb əlifbasını hələ çətinliklə oxuyurdum. Sinifə gətirilən jurnalın şəkilaltı qeydlərini höccələyə-höccələyə oxuduğumu görən Abbas müəllim mənə xüsusi diqqət yetirməyə və işimlə, vəziyyətimlə maraqlanmağa başladı.*
*Onun vasitəsilə mən başqa müəllimləri də yaxından tanıya bildim. Amma Abbas müəllimin mənə olan qayğısını heç kəsdən görmədim. O, elə tələbə ikən mənə «Kəşkül» qəzetini diplom işi kimi yazmağı təkidlə həvalə elədi və rəhbərliyini də özü boynuna götürdü.*
*Abbas müəllimlə ilk birgə əməkdaşlığımız belə başladı. O mənə elə o vaxtdan arxivlərimizdə yatıb qalan mənəvi sərvətlərimizi üzə çıxartmaq yollarını göstərdi. Mən onun rəhbərliyi ilə diplom müdafiə etdim. Onun qayğısı və zəmanəti ilə redaksiyaların birində işə düzəldim. Abbas müəllim bütün tələbələrinə beləcə xeyirxahlıq və rəğbətlə yanaşırdı. Onun üçün pis-yaxşı tələbə yox idi, onun üçün insan var idi. O, insanda həmişə insanı görməyə çalışırdı və qiymətləndirirdi. Buna görə də o, böyük Alim, böyük İnsan olmaqla bərabər, həm də Vətəndaşdır. Bizim hamımız yüksək vətəndaşlıq hissini, vətənpərvərlik duyğusunu, xalqa vurğunluğu birinci növbədə ondan öyrənmişik, onun şəxsi nümunəsindən bəhrələnmişik.*

**Şamil QURBANOV**
**Professor.**



**Qulam Məmmədli**

***Abbas müəllim çoxlu xahiş eləyərdi, amma mən bu onilliklər ərzində bir dəfə də görmədim ki, onun o xahişlərinin hansısa özü ilə bağlı olsun.***

***Telefon zəng çalardı, Abbas müəllimin təkrarsız səsi eşidilərdi: «Elçin, Əziz Şərifin xatirələrini nəşr etmək lazımdır... Qulam Məmmədlinin salnaməsinin çapı ləngiyir, köməkləşək, görək neyləyirik... Ərzurum Universitetinə təzə kitablar göndərmək lazımdır...»***

**Hörmətli qonaqlarımız, elm xadimlərimiz və gələcəyimizin təminatı istəkli tələbələrimiz. Konya Səlcuq universiteti Ali Şurası türk ədəbiyyatı aləminə gözəl əsərlər bəxş etmiş, Türkiyə ilə Azərbaycan arasında sarsıdılmaz mədəni əlaqələrin yaradılmasında hər çətinliyi öz bacarığı ilə məğlub eliyən gözəl alim, professor Abbas Zamanova fəxri doktorluq diplomu vermək qərarına yetişdi. Təşkil etdiyimiz bu mərasimdə iştirak etmək üzrə Bakıdan qalxıb Konyaya gələn profess-sor Abbas Zamanov hamımıza oradan xoşbəxtlik gətirib, səadət gətirib, bizim başımızı uca etmişdir.**

**Halil ÇİN**
**Konya Səlcuq Universitetinin rektoru**




**Türkiyə 1989-cu il.**
**Kopya Səlcuq unversitetində təşkil olunmuş təntənəli mərasim. Abbas Zamanova Fəxri Doktorluq diplomunun təqdim olunması.**



***1969-cu ildə unversitetdən məzun olunca Azərbaycan ədəbiyyatı üzərində çalışacağıma qərar verdim. Müəllimimin yönləndirməsi, Mirzə Fətəli Axundzadədən bəhs etməsi diqqətimi Azərbaycana yönəltdi. 1970-ci ildə Sovetlər Birliyinə gəldim. O zaman viza almaq və buralara gəlmək çox çətin idi. Ermənistandan dəmir yolu ilə gəlməli oldum. Arpaçayda qatara minib gələndə yolda sərhəd boyunca uzanan tikanlı məftilləri, silahlı əsgərləri, onların çəkmələrinin sərtliyini, məftillərin arxasındakı taranlanmış torpağı görüncə məni qorxu bürüdü. 22-23 yaşım vardı, amma bütün bunlara rəğmən, Azərbaycana gəldim. Bakıya gəlişimin səbəbkarı təsadüfən professor abbas Zamanovla məktublaşmağım oldu. Onunla görüşüb Azərbaycan ədəbiyyatı üzrə çalışmaq istəyimi söylədim. Mən o zaman Bakıda qalıb doktorluq işi müdafiə edə biləcəyimi zənn edirdim. İnanırsınızmı, o zaman***

***"Bakıda oxumaq istəyirəm, mənə təqaüd verin" – deyə sizin maarif nazirinin qəbuluna qədər getdim. O, bunun mümkün olmadığını dedi. İndi düşündükcə bunlar mənə röya kimi gəlir. Sonra bir neçə yaşlı adam mənə : "Sən türksən, burada heç bir türkə inam olmaz. Burada qalsan səni öldürəcəklər. Kitabları al, apar, ancaq burada oxuma. Rus burada türkün oxumasına izn verməz" dedilər. Mən Bakıdan iki bağlama kitabla qayıtdım...***

***-Abbas Zamanovun dəstəyi ilə Azərbaycana gəlib-getdim və buraları tanıdım.***

***Ən çox məktub yazdığım Abbas Zamanov olub. Onun da məndə məktubları var. Hətta, Ədəbiyyat arxivinin müdiri Maarif Teymur bir neçə dəfə "onları gətir arxivdə saxlayaq" -dedi.***

***70-80-ci illərdə Bakıdan Təbrizə məktub yazmaq çətin idi. Məktubu göndərsən də gedib çatmazdı. Ancaq Türkiyə ilə İran çox açıq olub. Hətta, bu gün belə iki dövlət arasında viza yoxdur.***

***Abbas Zamanov Səməd bəy Behrənginin qardaşı Həsən bəyə yazdığı məktubu mənə göndərirdi, mənsə Ərzurumdan Təbrizə göndərirdim. Mən həmin illərdə bilavasitə Azərbaycanla İran arasında körpü idim.***

**Yavuz AKPİNAR**
**Professor.**
**"Kaspi qəzeti". Bunlar mənə bir röya kimi gəlir.**
**Yavuz Akpinarla müsahibə.**
**15 oktyabr 2016. Səh 13.**



***Mən ona çox şey borcluyam. Allah rəhmət eləsin! Abbas bəy sovet zamanı qorxmadan məndən Rəsulzadənin əsərlərini istəyirdi. "Sən gətir , sənə nə?"- deyirdi. "Ya sərhəddə əlimdən alarlar, buraxmazlar". "Olsun". Sərhəddə Ermənistandan girərkən Gümrü tərəflərdə siyahı tuturdu ki, bu-bu kitablara əl vurulmuşdur. Gətirib Abbas bəyə qəbzini verirdim. Abbas bəy bir həftə, on gün sonra nəyi deyirdim o kitabları Bakıya gətirirdi. Yəni mən daşımaq söhbətindən qurtarırdım (gülür). Haqlısan yəni, Abbas bəy qorxmadan məktub yazardı, sadəcə bizə deyil, Kərkük türklərinə Abbas məktub yazardı. Biz hələ Kərkükdə türk olduğunu yeni başa düşdük.***

**Yavuz AKPİNAR**
**Professor.**



***«Azərbaycan müəllimi» qəzetində «Cənubdan səslər» adı altında xüsusi bölmə ayrılmışdır. Cənubi Azərbaycan ədəbiyyatının patriotlarından və tədqiqatçılarından olan Abbas Zamanov könüllü olaraq o bölmənin rəhbərliyini boynuna götürmüşdür. Təkcə «Azərbaycan müəllmi»ndə çap olunmuş məqalələri bir yerə toplansa samballı bir kitab əmələ gələr.***

*Mirzə İBRAHİMOV*
*Xalq yazıçısı*

***İstərdim Abbas Zamanovu xatırlayaq. Cünki, mühacirət ədəbiyyatının Azərbaycanda tanıdılmasında, yəni bilinməsində ən böyük xidmət məncə, Abbas Zamanovun adı ilə bağlıdır. Onun məktublaşmaları təmasları...***
***Abbas Zamanov Amerikada yaşamış mühacirlərimizdən Mustafa Hakkı Türkəqulun "Azərbaycanın məğdur şairi Hüseyn Cavid" kitabının da Vəli Məmmədovun araçılığı ilə sovet dönəmində Azərbaycanda tanıdılmasına vəsilə olmuşdu.***
***Səlim Turanın Bakıya gəlməsi uçun də çox uğraşmışdı. Səlim Turanı ilk dəfə Abbas Zamanovun vasitəsilə tanıdılar Azərbaycanda.***

**Azər TURAN**
**"Ədəbiyyat qəzeti"-nin baş redaktoru**



**Azər Turan**
**filalogiya üzrə fəlsəfə doktoru**
**“Ədəbiyyat qəzeti”-nin baş redaktoru**



**Sabir Rüstəmxanlı**
**xalq şairi**

***Abbas Zamanov başqalarına bənzəmirdi. Qəzetdə müxbir işləyirdim. O vaxtdan tanıyırdım onu. Sabir günlərində oxuduğum «Vətən» şeirini dinləyəndən sonra zəng vurub məni çağırmışdı yanına. Nizami muzeyinin direktoruydu. Qapını örtən kimi siyirtmədən, yazı vərəqi boyda şəkil çıxartdı: «Bunu tanıyırsan?» «Yox!» «Şerində adını çəkdiyin Cavad xandı!» Diksinmiş və tanımadığıma görə bir az da pərt olmuşdum...***
***«Bu şəkli məndən başqa heç kimdə görə bilməzsən. Bağışlayıram sənə».***
***Abbas müəllim beləydi. Əlinə maraqlı bir sənəd keçən kimi səliqəylə üzünü çıxartdırıb iki-üç cümlə fikriylə mənə göndərərdi...***

**Sabir RÜSTƏMXANLI**
**Xalq şairi.**



**Seyfəddin Altaylı**
**Türkiyə radiosu Azərbaycan bölməsinin rəhbəri**

***Bir gün daha qalıb Ankaraya yola düşdük. Ankaraya çatıb qonaq evinə gedib bir az dincələndən sonra mənə sakitcə dedi ki: «Bala, Alparslan Türkeşlə görüşmək istəyirəm, bu məsələni həll et». Vəziyyəti professor Ahmet Bican Ercilasun bəyə açdım o da mərhum Türkeşlə danışdı. İki gün sonra bir axşam Ahmct Bican bəyin evində qonaq idik. Doktor Məhəmməd Kəngərli, Nurəddin Nazar, mən və həyat yoldaşlarımız saat yeddinin yarısında yığışmışdıq. Baş küncdə isə Abbas müəllim əyləşmişdi. Aradan 20 dəqiqə ötəndən sonra xəbər gəldi ki, Türkeş gəlir. Abbas müəllim durdu, qapıda onu qarşıladı. İkisi də bir-birinin boynunu qucaqlayıb bir müddət eləcə qaldılar. Abbas müəllim kövrəlmişdi, «Nağıl qəhrəmanımı gördüm, çox sağ olun» deyir və duyğularını dilə gətirirdi. O axşam gec saatlara kimi oturub söhbət elədik. Türkeşlə söhbət Abbas müəlliməlzzət eləmişdi və onun Türkeşlə bağlı hissləri düzünü deyim, bizi də çaşdırmışdı.***

***Bütün olan hadisələr, araya çıxan duyğular bir şeyi sübut edirdi. Azərbaycan və Anadolu Türklərini bir-birindən ayırmağa bəşər olaraq heç kəsin, heç bir imperiyanın gücü çatmaz.***

***Allah sənə rəhmət eləsin, ey böyük və səmimi İnsan! Ailəmizin mənəvi atası, yerin nurla dolsun!***

**Seyfəddin ALTAYLI**
**Türkiyə radiosu Azərbaycan bölməsinin rəhbəri.**



***Abbas Zamanov atamın dayısıdır. Şərur rayonu Maxta kəndində böyük nüfuza malik olan, hörmətli Seyid Mirfəttahın oğludur. Onun haqqında uşaq yaşlarımda eşitmişdim.***
***İlk dəfə Abbas Zamanovu 1963-cü ildə Şərurda bizim evimizə qonaq gələndə gördüm. Dayımın görüşünə qonum-qonşular, Şərur camaatı o qədər gəlmişdilər ki, iynə atmağa yer yox idi. Dayım***

*bəstəboylu, ağsaçlı, gülərüzlü, çox istəkli görünürdü. Bir saatlıq qonaqlıq ərzində bizim ailə üzvlərinin hər biri ilə tanış olaraq uşaqların adlarını soruşardı, sonra göyə atıb-tutardı. Bu ilk görüşdən sonra sönməz Abbas Zamanov işığı qəlbimizə səpələndi.*

*Bir hüquqçu görüş zamanı mənim Abbas Zamanovun qohumu olduğumu bildikdə çox həyəcanla danışırdı ki, 60-cı illərdə Naxçıvanın Ermənistana verilməsi məsələsi qoyulmuşdu. Abbas Zamanov Rəsul Rza ilə birlikdə Naxçıvanda mitinqlər təşkil etmiş və Naxçıvanın Ermənistana birləşdirilməsinin qarşısını almışlar.*

*Elmlər Akademiyasında Səməd Vurğunun yubiley gecəsində Abbas Zamanov çıxış edərək Naxçıvanın Azərbaycan torpağı olduğunu tarixi, elmi sübutlarla göstərmiş və çıxışının sonunda: - Biz Naxçıvanı ermənilərə verməərik! - deyərək tələbə və müəllimlərin alqışına səbəb olmuşdur.*

*Bu tarixi hadisədən sonra ermənilər Naxçıvandan qovulub təmizlənmişdir.*

*Bu gün cəsarətlə deyə bilərəm ki, 60-cı illərin hadisələrində Abbas Zaınanovun cəsarəti, qeyrəti, doğru sözü qəlblərdə, fikirlərdə inqilab edərək, bizə cəsarətli olmağı, doğru söz deməyi öyrətdi.*

*Biz qohumları, kəndliləri Abbas Zamanovun adı ilə fəxr edirik.*

**Azər ABDULLAYEV**
**Tibb elmləri namizədi, dosent.**



***Həyatımla bağlı adamlar içində əziz müəllimim, böyiik vətəndaş, nadir şəxsiyyət və görkəmli alim, Azərbaycan EA-nın müxbir üzvü, professor Abbas Zamanov önəmli yer tutur. Abbas müəllim biz 70-ci illərin tələbələri üçün qeyrət, mərdlik və cəsarət məktəbi idi.***

**Nizaməddin ŞƏMSİZADƏ**
**Professor.**

***Respublikanın müxtəlif ədəbi tədbirlərində Abbas müəllimin çoxlu çıxışlarına qulaq asmışam. 0, çıxışını mövcud şəraitə və mövzuya uyğun əhvalat və ya xatirə ilə başlamağı sevər, qısa və dəqiq danışardı. Hansı mövzuda danışırsa-danışsın onu mütləq gətirib Azərbaycanın tarixi taleyi, milli azadlığın zəruriliyi ilə bağlayırdı. Onun özünəməxsus yumoru, mətnaltı zarafatları da olurdu. Bir dəfə Nizami Institutunda tədbir keçirilirdi. Abbas müəllim biz gənc alimlərə yaxınlaşdı, bir-bir ehtiramla görüşdük. Mənə Abbas müəllimlə yol-yoldaşlığı da nəsib olub. Səhv etmirəmsə 1983-cü il idi. Gənc alim və tənqidçi kimi Abbas miiəllim məni də Sabir poeziya günlərinə cəlb etdi. Akademik Bəkir Nəbiyev, Abbas müəllim, Xeyrulla Əliyev, İsmayıl Şıxlı, Əzizə Cəfərzadə, Balaş Azəroğlu, Cabir Novruz və başqa ədiblərlə Şamaxıya getdik. Birinci katib Firuz Mustafayev bizi çox səmimiyyətlə qarşıladı. Gözəl bir tədbir keçirib, şəkillər çəkdirdik. Burada da Abbas miiəllim təmkinini, zəhmini, başlıcası isə nüfuzunu bir daha miışahidə etdim...***

**Nizaməddin ŞƏMSİZADƏ**
**Professor.**



**Yavuz Axundlu**
**professor**

*1988-ci ildə Qarabağ hadisələri başlandıqdan sonra Abbas müəllim dərin həyəcan keçirirdi. Onun həmişə nikbin olan sifətini üzücü bir kədər bürümüşdü. Böyük alimin qayğılı baxışlarının mənasını mən indi başa düşürəm.*

*1990-cı ilin yayında Heydər Əliyev Naxçıvana gəlmişdi. Xalq onu böyük təntənə ilə qarşıladı. Respublikamızın hər yerindən onun görüşünə gəlirdilər. Çox keçmədi ki, Abbas müəllim və professor Yusif Seyidov Naxçıvana gəldilər. Bizdə qalırdılar. Abbas müəllim Heydər Əliyevin görüşünə gəldiyini bildirdi. Mən H.Əliyevin evinə zəng etdim. Axşamçağı biz onun qonağı olduq. H.Əliyev Abbas müəllimlə xüsusi məhəbbət və hörmətlə görüşdü. Abbas müəllim ona bir neçə kitabını hədiyyə gətirmişdi. Tələbə dostum Yusif müəllim də, mən də H.Əliyevə kitablarımızdan bağışladıq. Xeyli söhbət etdik. Mən Abbas müəllimin ucalığının bir daha şahidi oldum. Abbas müəllim axşam mənə dedi ki, iki işimiz qaldı. Birincisi, Əzizin qəbrinə baxmalıyam, ikincisi Sədərək körpüsünə.*

*Abbas Zamanov Azərbaycan ziyalılarının ən gözəl keyfiyyətlərini özündə təcəssüm etdirən nadir şəxsiyyətlərdən biri idi.*

*Mən fəxr edirəm ki, uzun illər onunla dostluq etmişəm.*

*Allah ona rəhmət etsin, qəbri nurla dolsun.*

**Yavuz AXUNDLU**
**Professor.**



**Soldan ikinci Süleyman Rüstəm, Rəsul Rza, Abbas Zamanov (ayaq üstə), Məmməd Rahim və başqaları**



**Abbas Zamanov (ayaq üstə).**
**Gənclik illəri**



**Sağdan ayaq üstə: Şamil Qurbanov, Ələvsət Abdullayev, Abbas Zamanov(ortada)**



**Soldan ikinci: Abbas Zamanov, Mirvarid Dilbazi, Əzizə Cəfərzadə, İlyas Əfəndiyev, Hüseyn Abbaszadə**



**Abbas Zamanov nəvələri arasında**



Ptofessor Rənah Xəlilov və Abbas Zamanov



**Abbas Zamanov həmkarları arasında**



Türkiyə 1989-cu il. Soldan: Abbas Zamanov, Alparslan Turkeş



**Abbas Zamanov və oğlu Firuz**



Soldan: Abbas Zamanov, həyat yoldaşı Asya xanım və nəvəsi Aykun



**Sağdan: Abbas Zamanov, Sinan Səid(İraq) və başqaları**



**Abbas Zamanov**



**Sağdan: Abbas Zamanov və oğulları Fuad və Firuz**



**Abbas Zamanov, 1942**



***Abbas Zamanov və oğlu Fuad***



*Naxçıvan aeroportu, 1982-ci il.*
*H.Cavidin cənazəsinin uzaq Sibirdən*
*Naxçıvana gətirilməsi*



***Solda: (öndə) - Hüseyn Abbaszadə, Əziz Şərif, Abbas Zamanov,***
***Solda: (arxada) - Emin Mahmudov, Adil Babayev, Ayaz Vəfalı***
***22 aprel 1967-ci il***



***Sabir poeziya günləri.***
***Soldan: Rəsul Rza, Abbas Zamanov,***
***Abram Plavnik, Süleyman Rəhimov***



***Soldan: Sinan Səid, Şakir Sabir Zabit, Abbas Zamanov, İsmayıl Axundov M.P.Vaqifin 250 illik yubileyində. Bakı, 1968***

Və əlbəttə, o zaman mənim ağlıma gəlməzdi ki, illər keçəcək və aramızdakı otuz ildən artıq bir yaş fərqinə baxmayaraq, Abbas müəllimlə dost olacağıq.

***

Bütün Azərbaycan o çıxışdan danışırdı.

Mənim yaxşı yadımdadır, həmin günlərdə bir axşam Mehdi Hüseyn bizə gəlmişdi, atamın iş otağında oturub həmişəki kimi söhbət edirdilər və ədəbiyyat söhbətlərinə çox maraqlı olduğum üçün (artıq hekayələrim çap olunurdu), mən də həmişəki kimi onların yanında oturub o söhbətlərə qulaq asırdım.

Mehdi Hüseyn dedi:

-Vəli deyir ki, Abbasın çıxışı gedib Xruşşova çatıb. Deyir, Mikoyan başda olmaqla, doğrudan da, Naxçıvan məsələsini qaldırıblarmış. Təklifləri hələ xeyli qabaqlar Tevosyan hazırlayıbmış. Abbasın çıxışından sonra bu məsələni gündəlikdən çıxarıblar.

Mehdi Hüseyn, o zaman Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində işləyən Vəli Axundov ilə dost idi və bu gizli söhbəti də Mehdi Hüseynə o danışmışdı.

Əslən şuşalı olan İvan Fyodoroviç Tevosyan isə Orcenikidzenin dostu, Stalinin sevimli silahdaşlarından biri idi, uzun müddət böyük vəzifələrdə, o cümlədən, SSRİ Nazirlər Soveti sədrinin müavini vəzifəsində işləmişdi və o zaman, səhv etmirəmsə, artıq vəfat etmişdi.

İlyas Əfəndiyev Abbas Zamanovun xətrini çox istəyirdi və çox da həyəcanla, daxili bir ağrı-acı ilə o

çıxışdan sonra Abbas müəllimin aqibəti ilə maraqlanırdı və demək olar ki, hər gün telefonla ona zəng edib hal-əhval tuturdu.

Xeyli sonralar, 60-cı illərin axırlarında mən aspirant olduğum zamanlar Abbas müəllimlə aramızda səmimi bir münasibət yarananda, Abbas müəllim deyirdi:

-O vaxt yaxın dostların, tanışların çoxu küçədə məni görəndə qaçıb gizlənirdi. Ancaq İlyas hər gün mənə zəng eləyib kefimi soruşurdu. Rastlaşanda da mənimlə «demonstrativ» görüşürdü.

Bu «demonstrativ» sözünü Abbas müəllim necə demişdisə, elə də yazıram.

O çıxışdan sonra Abbas müəllimin başı çox bəlalar çəkdi, onu partiyadan çıxartdılar, işdən çıxartdılar, əsərlərinin çapı yasaq olundu, bir sözlə, sistemin güclü təqib mexanizmi işə düşdü, Abbas müəllim üçün böyük maddi çətinliklər dövrü başladı, amma mənən ona heç cür təsir edə bilmədilər.

Abbas müəllim özü mərd və dostluqda möhkəm adam idi. Vaxtilə Cəfər Cəfərov «kosmopolit» kimi ifşa edilib təqibə məruz qaldığı vaxt onun ən çox qayğısına qalmış adam Abbas Zamanov olmuşdu və bunu mən dəfələrlə Cəfər müəllimin öz dilindən eşitmişdim.

Abbas müəllim də təqibə məruz qalanda, bir sıra dostları ona qahmar çıxmışdı, amma əksəriyyət ondan gen gəzirdi...

Təxminən yeddi il beləcə davam etdi.

Sonra Abbas Zamanov əzmi, zəhməti, şövqü onu öz layiqli yerinə, əgər belə demək mümkünsə, bərpa etdi.

Mən hələ 1985-ci ildə Abbas müəllimin 75 illiyi münasibətilə onun haqqında kiçik bir yazı yazmışdım və o yazını başlarkən, istər-istəməz, Türkiyəyə ilk səfərimi xatırlamışdım, həmin yazını elə o səfərin təəssüratı ilə də başlamışdım.

Mən 1979-cu ilin yazında Əziz Nesinin dəvətilə İstanbula getdim və o səfər zamanı ədəbi məclislərdə, görüşlərdə, yığıncaqlarda türk yazıçıları, alimləri, sənət adamları məndən, əsasən, iki nəfəri xəbər alırdı və o iki nəfərə də salam göndərirdi: unudulmaz maestro Niyazini və professor Abbas Zamanovu.

Maestro Niyazi neçə dəfə Türkiyəyə getmişdi, orada konsertlər vermişdi, opera quruluşlarına rəhbərlik etmişdi və nəinki o zaman, bugünün özündə də türk musiqi xadimləri türk simfonik musiqi ifaçılığının inkişafında Niyazinin xidmətlərindən ağızdolusu danışırlar.

Abbas Zamanov isə o vaxtacan Türkiyədə olmamışdı, amma onun sovet zamanı Azərbaycan ədəbiyyatının, mədəniyyətinin Türkiyədəki təbliği sahəsində göstərdiyi fəaliyyət böyük və çox səmərəli rol oynamışdı və bu barədə söz düşəndə biz həmişə sidq-ürəkdən etiraf edirdik: Abbas müəllim o işi görür, o zəhməti çəkir, o əzab-əziyyətə qatlaşır ki, onu bizim heç birimiz etmirik. Türkiyədəki elmi müəssisələrin, alimlərin ünvanını tapır, onlarla əlaqə yaradır, heç kimin

köməyi olmadan o ünvanlara cild-cild kitablar, jurnallar göndərir, qorxunc və beton sərhədlərin üzərindən türk professorunu, türk tələbəsini Azərbaycanın ədəbi, mədəni, elmi həyatına cəlb edə bilir.

Abbas Zamanov «Sabir və müasirləri» monoqrafiyasında böyük şairimizin «öz dövründə təqib və təkfirlərə məruz qalmasından» bəhs edərək yazırdı: «Lakin çox zaman bu məsələni yanlış izah edirlər: guya, xalq Sabiri başa düşməmiş, millət Sabiri vərəmlədib öldürmüşdür. Əlbəttə, belə fikirdə olanlar kobud səhv edirlər. Onlar xalq ilə xalqın içərisində olan və azlıq təşkil edən mürtəce, istismarçı, tüfeyli təbəqələri ayırd edə bilmirlər».

Olsun ki, bu, məlum həqiqətdir, amma indiki halda mənim üçün ona görə əlamətdardır ki, Abbas müəllimin xislətindəki ədəbiyyat, sənət təəssübkeşliyinin əsasında da həmin xalq təəssübkeşliyi dayanırdı: kiçik detaldır, amma Abbas müəllimin xisləti barədə, onun cəsarəti, ötkəmliyi, məğrurluğu, eyni zamanda, xeyirxahlığı, həssaslığı barədə, elə bilirəm ki, az şey demir.

Əlbəttə, həmişə belə olmalıdır, ədəbiyyatı tədqiq edən hər bir qələm sahibi, aydın məsələdir ki, ədəbiyyatın təəssübkeşidir, ədəbiyyatın təəssübü isə xalq təəssübünün fövqündə deyil, çünki həmin ədəbiyyat mücərrəd bir varlığın yox, xalqın özünü ifadəsi, xalqın mənəvi sərvətidir.

Bəli, həmişə belə olmalıdır, amma təəssüf ki, həmişə belə olmur və buna görə də Abbas Zamanov kimi ədiblərimizin sovet ideologiyasının heç vəchlə

bəyənmədiyi, təqdir etmədiyi, bir sıra hallarda isə cəzalandırdığı xalq təəssübkeşliyi, xalqın milli-mənəvi sərvətinin təbliği naminə gənclik ehtirası ilə fəaliyyət göstərməsi, elə bilirəm ki, bu gün də gənclərimiz üçün bir örnəkdir.

Abbas müəllim bir tədqiqatçı alim kimi klassik Azərbaycan ədəbiyyatını, xüsusən, Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabirin adı ilə bağlı olan «Molla Nəsrəddin» və mollanəsrəddinçilər dövrünü araşdırırdı, öyrənir və öyrədirdi, mətnşünas bir alim kimi xalqın mənəvi sərvətini yenidən xalqın özünə təqdim edirdi, Cəlil Məmmədquluzadə ilə Sabirdən başqa M.P.Vaqifin, N.Nərimanovun, S.S.Axundovun, Ə.Haqverdiyevin, S.M.Qənizadənin, Hambalın, S.Hüseynin və başqalarının da əsərlərinin nəşrində yaxından iştirak edir, böyük Mirzə Cəlilin həyat yoldaşı Həmidə xanımın çox qiymətli xatirələrini, müasirlərinin Sabir haqqındakı xatirə və məqalələrini nəşrə hazırlayır, tənqidçi və teatrşünas kimi müasir ədəbiyyatımızın və teatr sənətimizin problemlərindən, yaradıcılıq nailiyyətlərindən, çatışmazlıqlarından yazır, eyni zamanda həmin gənclik ehtirası ilə ədəbiyyatımızı, sənətimizi təbliğ edir, Q.Zakirin, S.Ə.Şirvaninin, Cəlil Məmmədquluzadənin kitablarını rusdilli oxuculara təqdim edir, klassik ədəbiyyatımızın nümunələrini ərəb əlifbası ilə nəşr etdirir (Abbas müəllim deyirdi: «-Cənubda da oxuya bilsinlər!»), yalnız Türkiyədə yox, Yaxın Şərq ölkələrindən tutmuş İspaniyaya, o zamankı AFR-ə, Fransaya, İngiltərəyə, ABŞ-

adək dünyanın bir çox ölkələrində yaşayan şərqşünas (konkret olaraq, türkşünas, daha konkret isə azərbaycanşünas) alimlərlə, nüfuzlu qələm sahibləri ilə yaradıcılıq əlaqəsi saxlayır, yuxarıda yazdığım kimi, Azərbaycanla bağlı hər hansı məlumatı əldə etmək üçün müxtəlif ünvanlara məktub yazmaqdan, rabitə şöbəsinə gedib-gəlməkdən yorulmur, yeni çıxan bədii kitablarımızdan, eləcə də tariximizlə, dilimizlə bağlı nəşr olunan kitablardan ibarət bağlamaları xarici ölkələrə göndərirdi...

Unudulmaz akademik Həmid Araslı Abbas müəllimin «Sabir gülür» kitabının redaktoru idi və həmin kitabın kiçik müqəddiməsində yazırdı: «Abbas Zamanovun elmi maraq dairəsi son dərəcə genişdir».

Mən həmişə fikirləşmişəm və bu gün də bu fikirdəyəm ki, Abbas müəllimin həmin «son dərəcə geniş» elmi maraq dairəsinin əsasında onun, az qala, cismani surətdə daima hiss etdiyi vətəndaşlıq borcu dayanırdı. Məhz belə bir «Abbas Zamanov vətəndaşlığının nəticəsidir ki, Türkiyənin Ərzurum Universitetində qarşısındakı lövhədə «Abbas Zamanov bağış kitablığı» sözləri yazılmış üçotaqlı bir kitabxana artıq iyirmi ildir fəaliyyət göstərir.

O üçotaqlı kitabxanadakı bütün kitabları Abbas Zamanov öz şəxsi hesabına alıb, şəxsi hesabına da Türkiyəyə göndərmişdi.

Təbrizdəki Tərbiyə kitabxanasında Abbas müəllimin Cənubi Azərbaycana göndərdiyi mindən artıq kitab saxlanılır və istifadə olunur.

Və bütün bu işlərin hamısını Abbas müəllim Sovet İttifaqında görmüşdü, hakim ideologiyanın türkçülüyü, milli təəssübkeşliyi təqib etdiyi bir mühitdə görmüşdü.

Eyni zamanda, Abbas müəllim Azərbaycanla bağlı bir çox kitabları, mətbu materialları, sənədləri xarici ölkələrdən Azərbaycana gətirdə bilmişdi. «Əli və Nino» romanını mən ilk dəfə (və təbii ki, gizli surətdə!) Abbas müəllimdən hələ 80-ci illərin əvvəllərində alıb oxumuşdum, sonralar da bu barədə yazmışdım.

Yaxud, Abayın «Füzuli» pyesini də mənə ilk dəfə Abbas müəllim vermişdi.

70-ci illərdə, Kommunist partiyasının və KQB-nin qılıncının dalı da, qabağı da kəsdiyi bir vaxtda, Abbas müəllim, deyək ki, Parisdə yaşayan azərbaycanlı rəssamı tapmışdı, onunla əlaqə yaratmışdı, onun bir neçə əsərinin orijinalını Fransadan Azərbaycana gətirmiş və Nizami adına Ədəbiyyat Muzeyinə hədiyyə etmişdi.

Bu fakt, bəlkə, bir o qədər də heyrətamiz olmazdı, əgər həmin rəssam hakim sovet ideologiyasının qatı düşmən elan etdiyi Əli bəy Hüseynzadənin doğmaca oğlu Səlim Turan olmasaydı!

Tale belə gətirdi ki, 1988-ci ilin bir payız gecəsi mən Parisdə Səlim Turanın kiçik emalatxanasında oturub, az qala, səhərə kimi söhbətləşərkən, bu istedadlı rəssamın və yüksək mədəniyyətli bir insanın Abbas müəllimə necə hörmət və məhəbbət bəslədiyini onun öz dilindən eşitdim.

«-Abbas bəyin sayəsində Azərbaycanı yenidən tanıdım» bu, rəhmətlik Səlim Turanın o zaman mənə dediyi sözlər idi.

Bu cümlələri yazıram və hələ 60-cı illərin sonu, 70-ci illərdə Abbas müəllimgilin mənzilində o zamankı Cənubi Sovet meydanı, 5 nömrəli binada Abbas müəllimin qayğıkeş və mehriban xanımı Asya xalanın çayını içə-içə Abbas müəllimin Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyov kimi milli siyasi xadimlərimiz haqqındakı söhbətləri yadıma düşür. Abbas müəllim bu adamlar haqqında elə təfərrüatla və elə bir səmimiyyət və həvəslə danışırdı ki, elə bil, onları görmüşdü, nəinki görmüşdü, hətta elə bil, onlarla uzun illərin dostu olmuşdu.

Ona görə ki, Abbas müəllim onlarla, həqiqətən, əqidə, məslək, əməl dostu idi.

Abbas Zamanov hələ 1967-ci ildə yazdığı bir məqaləsini «Əməl dostları» adlandırmışdı (məqalə mollanəsrəddin-çilərdən bəhs edirdi). Onun 1979-cu ildə nəşr olunmuş məqalələr toplusu da bu cür adlanırdı. Abbas müəllim həmin məqalənin hissələrindən biri üçün Cəlil Məmmədquluzadənin həmişəki səmimiyyət və təvazökarlıqla yazdığı bu sözləri epiqraf seçmişdi: «Darülmüəllimi qurtaran zaman Naxçıvanda özümdən artıq huşyar dostlarıma rast gəldim».

XX əsr Azərbaycan ədəbi-ictimai həyatındakı belə bir «huşyar dostluq» get-gedə böyüdü, mənəvi-məfkurəvi dostluğa əməl dostluğuna çevrildi, o dostluğun

coğrafi ərazisi bütün Azərbaycanı əhatə etdi, əməl dostluğu yaşından, xasiyyətindən, istedadından asılı olmayaraq bir çox qələm sahibini birləşdirdi və indi mən bu qeydləri yazarkən həmin böyük əməl dostluğunu ona görə bir daha nəzərə çatdırıram ki, elə bil, əməl dostlarından yazan və ömrünü bu dostluğun həm siyasi-ictimai, həm də bədii estetik ifadəsinin tədqiqinə həsr edən Abbas Zamanov özü də o dostluq estafetini böyük sələflərindən alıb XX əsrin sonlarına gətirmişdi, elə bil, o özü də əsrin əvvəlindəki həmin əməl dostlarından biri idi.

Abbas müəllim zəmanəsinin vulqar sosiologizmindən uzaq bir tədqiqatçı və dövrünün konyunkturasından uzaq bir insan idi. Yəqin elə buna görə də, onun monoqrafiyaları, məqalələri xarici ölkələrdə Türkiyədə, İraqda, İranda, Avstriyada, Almaniyada nəşr edilir, çap olunurdu. «Sabir və müasirləri» adlı monoqrafiyası 1979-cu ildə Təbrizdə fars dilində nəşr olunmuşdu və burası da, yəqin, oxucular üçün maraqlı olar ki, həmin əsəri fars dilinə Səməd Behrənginin qardaşı Əsəd Behrəngi çevirmişdi.

Abbas müəllim filologiya elmləri doktoru, Azərbaycan Dövlət Universitetinin professoru, əməkdar elm xadimi, Elmlər Akademiyasının müxbir üzvü, o zaman mühüm informasiya imkanlarına malik «Xəbərlər» Mətbuat Agentliyi Azərbaycan Şurasının sədri, xarici ölkələrdəki bir sıra nüfuzlu qurumların, o cümlədən, Türk Dil Qurumunun üzvü idi, Səlcuq Universitetinin fəxri doktoru seçilmişdi.

Əlbəttə, bu adlar, vəzifələr hörmətli idi, Abbas müəllim onları istedadı və zəhməti ilə qazanmışdı və elə buna görə də mənim üçün Abbas müəllimin şəxsiyyəti ilə «zəhmətkeş» sözü arasında çox üzvi bir bağlılıq var. Abbas müəllim zəhmətkeş idi, ədəbiyyatımızın, mədəniyyətimizin təşəbbüskar, yorulmaq bilməyən fəhləsi (və fədaisi!) idi.

***

Mən aspirant olarkən, «Azərbaycan bədii nəsri ədəbi tənqiddə» mövzusunda namizədlik dissertasiyasının müdafiəsinə hazırlaşarkən tez-tez Abbas müəllimlə görüşürdüm, 30-40-50-ci illər ədəbi prosesinin fəal iştirakçısı kimi onunla məsləhətləşirdim. Nizami adına Ədəbiyyat İnstitutunda əvvəlcə kiçik, sonra baş elmi işçi işlədiyim vaxtlar isə 70-ci illərin əvvəllərindən etibarən, Abbas müəllimlə ünsiyyətimizdə xüsusi bir hərarət yarandı.

Mən 1969-cu ildə namizədlik dissertasiyasını müdafiə etdim və o müdafiəyə hazırlıqda, müdafiə mərasiminin özündə elmi rəhbərim Mir Cəlal müəllim, rəsmi opponentlərim Mirzəağa Quluzadə və Mehdi Məmmədovla birlikdə Abbas müəllim də çox aktiv iştirak etdi, çıxış etdi, xüsusi rəy yazdı və təklif etdi ki, bu dissertasiyaya görə namizədlik yox, birdən-birə doktorluq dərəcəsi verilsin.

Müdafiədən sonra mən Abbas müəllimə təşəkkürümü bildirəndə, o mənim qoltuğumdakı 500 səhifəlik dissertasiyanı göstərərək:

-Mən sənə görə yox, bax, bu işə görə o təklifi verdim, -dedi.

Bəlkə də, bir başqasının dilində bu sözlər təmtəraqlı, ya süni səslənə bilərdi, bəli, başqasının, amma Abbas müəllimin yox, çünki Abbas müəllim sözü şax üzə deyən az adamlardan, az ziyalılardan biri idi.

Abbas müəllim ilə mənim aramda, yuxarıda yazdığım kimi, otuz ildən artıq bir yaş fərqi var idi, amma bu gün mən daxili bir qürur hissi keçirirəm ki, biz dost idik.

Hal-əhval tutmaq üçün ona zəng edirdim:

-Necəsiniz, Abbas müəllim?

Bu sualın cavabı həmişə eyni olurdu:

-Şikayətim yoxdur.

Onun o cavabı mənim üçün mənalı, hətta rəmzi səslənirdi uzun (və şərəfli!) bir həyat yolunda keşməkeşlər, çətinliklər, təqiblər çox olsa da, şəxsi həyatında kədərli problemlər yaransa da, səhhəti bəzən sözünə baxmasa da, Abbas müəllimin heç kimdən və heç nədən şikayəti yox idi, çünki Abbas müəllim həyatı sevirdi, həyat isə onun üçün ilk növbədə, ədəbiyyat demək idi, xalqın mənəvi sərvətinin keşiyində dayanmaq və xalqa xidmət etmək, bu xidmətlə də xalqı müdafiə etmək demək idi.

Abbas müəllimin həyat eşqi ədəbiyyat eşqi, xalq məhəbbəti idi.

Bir də ki, yaratmaq şövqü, fəaliyyət ehtirası...

Abbas Zamanovun yüksək qiymətləndirdiyi və tez-tez haqqında danışdığı böyük şairlərimizdən biri Məhəmməd Hadi yazırdı:

**Nəzər qıl, diqqət et, öyrən həyatın əsl mənasın,**
**Həyatından sənin bir mətləbü mənzur lazımsa...**

Abbas müəllim bizim o qələm sahiblərimizdən idi ki, onların həmin «mətləbü mənzur»u xalqın marağı ilə yaşamaq idi.

***

Abbas müəllim nə qədər nikbin, dözümlü, əyilməz bir adam idisə, bir o qədər də kövrək, ürəyinazik adam idi.

Abbas müəllim: «Şikayətim yoxdur!» deyirdi, heç bir sıxıntısını büruzə vermirdi, amma, xüsusən, 80-ci illərdə mən onun içində bir kədər, bir nostalgiya hiss edirdim.

Hərdən, axşam telefonla zəng edirdi:

-Yaxşı konyakım var. Dur gəl bizə.

Və kiçik qədəhlərdə o «yaxşı konyak»dan içə-içə, Asya xalanın xüsusi bir səliqə sahmanla mizin üstünə düzdüyü gözəl nemətlərdən dada-dada Abbas müəllimlə söhbət edirdik.

Abbas müəllim Mirzə Cəlildən, Sabirdən, Hadidən, Əli bəy Hüseynzadədən, Əhməd bəy Ağayevdən, İsmayıl bəy Qaspirinskidən, Üzeyir bəydən, Ceyhun bəydən, Həmidə xanımdan, Məmməd Tağı Sidqidən, Nəriman Nərimanovdan, Sultan Məcid Qənizadədən, Əzim Əzimzadədən, Səməd Mənsurdan, Müznibdən, Caviddən, Nəzmidən, Seyid Hüseyndən, başqa əhli-

qələmdən, eləcə də Məhəmməd Əmindən, Atatürkdən, Yusif bəydən, Xan Xoyskidən, Əlimərdan bəydən, Fətəli bəy Düdənginskidən, başqalarından danışırdı və o anlarda mənə elə gəlirdi ki, Abbas müəllimin ürəyini, çoxunu ömründə heç görmədiyi, bilavasitə ünsiyyətdə olmadığı o insanların xiffəti bürüyüb.

Mənə elə gəlirdi ki, Abbas müəllim onlar üçün darıxır...

***

Hərdən zarafatla Asya xalaya deyirdim:

- Abbas müəllim deyir ki, daha kitab almayacağam. Bundan sonra pulları büllur qablara verəcəyəm.

- Asya xala:

- Keçdi daha! deyirdi. Bizim büllur yığmağımızın vaxtı keçdi...

Əvvəlcə Asya xala vəfat etdi, bir müddət sonra Abbas müəllim.

Axırıncı dəfə Abbas müəllimi yoluxanda yataqda əzab əziyyət içindəydi və mən yavaşdan onu çağıranda bir neçə an, elə bil ki, o əzab-əziyyətdən yaxa qurtarıb zəndlə mənə baxdı və mən bütün içimlə, fikrimlə hiss etdim ki, Abbas müəllim məni tanıdı, gözləri ilə mənə: «Elçin...» dedi və onun gözləri ilə dediyi o bir kəlmədə də o qədər söz dedi ki, dünyanın faniliyi cismani bir şey kimi özünü mənim varlığıma təpdi.

Sonra o olmazın əzab əziyyət yenə Abbas müəllimi yaxaladı.

O vaxtdan keçən bütün günlər ərzində mən o son görüşün acısı içində idim, eşidəcəyim çox kədərli bir xəbərin ərəfə qorxusu məni bürümüşdü, sarsıtmışdı, səksəkəyə salmışdı, evimizdə səslənən hər telefon zəngi elə bil ki, o qara xəbərin sorağı idi.

Və o amansız, acılı-ağrılı xəbəri eşidəndə birdən-birə qoca Aşıq Alının haçansa yaddaşımda ilişib qalmış sadə və tamam əlacsız misraları yadıma düşdü:

**Bu fani dünyadan bir köç eylərəm,**
**Aran qəmgin olub, dağ inciməsin...**

Abbas müəllimi dəfn etdikdən sonra, qəbiristanlıqdan atamgilə getdim və o gecə İlyas Əfəndiyevin dərin bir kədərlə dediyi sözlər də həmişəlik yadımda qalıb:

-Abbasla birlikdə çox şey getdi...

Abbas müəllim haqq dünyasına köçdü və bizim bu fani dünyamızda öz missiyasını alın açıqlığı ilə yerinə yetirib getdi, insanlıq borcunu, vətəndaş borcunu, maarifçi borcunu ödədi, getdi.

Abbas müəllim XX əsrin əvvəllərindən xalqına xidmət edən böyük Azərbaycan ziyalıları nəslindən aldığı əxlaq, əqidə, cəsarət estafetini ən qorxulu-qadalı illərdə belə, əlindən salmayan bir qələm sahibi, bir ağsaqqal dost idi, etibarlı idi, təpərli idi, ona güvənirdik.

Babaların zaman sınağından çıxmış deyimi ağlıma gəlir: «Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış!», amma Abbas müəllim ucalığına heç vaxt qar yağmazdı...

O bizim ziyalı keçmişimizlə bugünümüz arasında canlı bir körpü idi və nə yaxşı, nə qənimət ki, həmin milli ziyalı mənəviyyatını təcəssüm etdirən, onun üçün çox qiymətli olan, bəlkə də bütün ömrü boyu içində gəlişini gözlədiyi üçrəngli bayrağımızın bir daha ucaldığını gördü, getdi.

Abbas müəllim çoxlu xahiş eləyərdi, amma mən bu onilliklər ərzində bir dəfə də görmədim ki, onun o xahişlərinin hansısa özü ilə bağlı olsun.

Telefon zəng çalardı, Abbas müəllimin təkrarsız səsi eşidilərdi: «Elçin, Əziz Şərifin xatirələrini nəşr etmək lazımdır... Qulam Məmmədlinin salnaməsinin çapı ləngiyir, köməkləşək, görək neyləyirik... Ərzurum Universitetinə təzə kitablar göndərmək lazımdır...»

Beləcə Abbas müəllim narahatlığı. 1993-cü ildə Abbas müəllim vəfat edərkən mən yazmışdım:

«İllər keçəcək... Abbas müəllimi tanıyan sonuncu insan yaşayana qədər Abbas müəllim də bu dünyada yaşayacaq. Sonrakı illər də Abbas müəllim unudulmayacaq. Nə qədər ki, Mirzə Cəlil yaşayacaq, o qədər də Azərbaycan elminin, ədəbiyyat tarixinin səhifələrində Abbas müəllimin adı çəkiləcək, onun o böyük qələm sahibləri haqqındakı tədqiqatları xatırlanacaq.

İllər keçəcək... Və gənc bir tədqiqatçı, Həmidə xanımın xatirələrini oxuyanda, Sabirin müasirləri ilə tanış olanda, «Molla Nəsrəddin»çiləri öyrənəndə, bütün bunları üzə çıxaranlardan biri olan Abbas müəllimin də əməyinə qiymət verəcək, amma min təəssüf,

min təəssüf ki, o gənc alim Abbas müəllimin səsini eşitməmiş, canlı simasını görməmiş, onunla yola çıxmamış, onunla məsləhətləşməmiş olacaq...»

Hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmır.

Abbas müəllimin vəfatından on il keçir.

Artıq XXI əsr başlayıb.

Və Abbas müəllimin kitabları bu gün də nəşr edilir və bu nəşrlər onun ömrünün yaradıcılıq ömrünün XXI əsrdəki davamıdır.

Abbas müəllim bizim ailəmizin ehtiram bəslədiyi məhrəm adamlardan biri idi.

1988-ci ilin dekabrında, Yeni il ərəfəsində Abbas müəllim mənim kiçik qızım Aysuya həmişəki duzlu yumorla qələmə aldığı belə bir təbrik məktubu göndərib:

«Aysu xanımın, onun valideynlərinin və bacılarının Yeni ili mübarək! İnanıram ki, təzə ildə Aysu xeyli böyüyəcək və evdəkilərə, nisbətən az əzab əziyyət verəcəkdir. Hələlik Allah sizə səbr versin. Aysunu çox istəyən babası Abbas Zamanov. 25. XII. 88».

O vaxtdan on beş il keçib.

O zaman Aysunun üç yaşı var idi. Bu gün isə Aysunun 18 yaşı var.

Və Abbas Zamanov bu gün də Aysunun (və aysuların!) mənəvi babası olaraq qalır, çünki bu mənəvi səlahiyyəti və iqtidarı Abbas müəllimə onun amalı, əməlləri və əsərləri qazandırıb.

Mən lap bu yaxınlarda SSRI KQB-sinin keçmiş sədri, 1964-cü il dövlət çevrilişində Nikita Xruşşovun hakimiyyətdən kənarlaşdırılmasında xüsusi rol oynamış Vladimir Semiçastnının kitabında Abbas müəllimin həmin çıxışı ilə bağlı xatirələrinə rast gəldim.

Sovet İttifaqında müttəfiq respublikaların partiya rəhbərliyinə ikinci katib kimi, adətən, Moskvadan milliyyətcə rus olan partiya işçisi göndərilirdi və vaxtilə sovet komsomolunun rəhbəri olmuş Vladimir Semiçastnı 1959-1961-ci illərdə Azərbaycan KP MK-nın ikinci katibi vəzifəsində işləyirdi və onun xatirələrindən belə məlum olur ki, o zaman respublikanın faktiki rəhbəri Vəli Axundov yox, bu adam olub.

V.Semiçastnı gənc yaşlarından etibarən Nikita Xruşşovun daima irəli çəkdiyi və nəhayət, ən etibarlı bir adam kimi, 1961-ci ildə Azərbaycandan çağırıb birbaşa KQB-yə sədr qoyduğu general-polkovnik idi (bu rütbəni də ona Nikita Xruşşov vermişdi!), xeyirxah patronunun axırına çıxan da, əslində, real güc sahibi kimi Leonid Brejnev yox, elə bu adam oldu.

V.Semiçastnı kitabında qəzəblə (və başa düşülən bir qərəzlə!) Səməd Vurğunun xatirə gününə həsr olunmuş həmin tarixi məclisin təfərrüatını xatırlayır, Abbas müəllimin çıxışının yaratdığı təlatümdən bəhs edir və sən demə, Azərbaycan KP MK-nın o zamankı ideoloji katibi tamam sarısını udmuş halda və belə bir ürkmüş harayla ikinci katibin Semiçastnının kabine-

tinə giribmiş: «Bədbəxtlik üz verib, Vladimir Yefimoviç, bədbəxtlik!»

V.Semiçastnı yazır: «Büronun (söhbət Azərbaycan KP MK Bürosundan, yəni o dövrün ən yüksək partiya-dövlət qurumundan gedir) iclasını çağırdıq və çaxnaşma yaratmış təxribatçı bəyanat ilə çıxış edən həmin natiqi (Abbas müəllimi!) partiyadan xaric etdik. (Bespokoynoye serdtse, Moskva, «Vaqrius», 2002, səh. 128.)

O zaman kimisə partiyadan xaric etmək əslində, insanı qanundan kənar elan etmək kimi bir şey idi və onun bütün hüquqları əlindən alınırdı, işdən çıxarılırdı, ictimai «ifşa» kompaniyasına məruz qalırdı...

Amma belə şeylər Abbas müəllimi sındıra bilməzdi və sındırmadı da.

**Seçilmiş əsərləri. 10 clilddə.**
**Redaktor Dilsuz.**
**Bakı. Çinar-çap. 2005.**
**VII C. Səh 305-317.**



***«...Abbas Zamanovun dissertasiyasının yalnız böyük inqilabçı demokrat şair M.Ə.Sabirin qoyub getdiyi zəngin bədii irsin tədqiqi sahəsində deyil, ümumiyyətlə XX əsr ədəbiyyatının öyrənilməsində böyük əhəmiyyəti vardır».***

***Mir Cəlal Paşayev***
***Professor.***

# İŞIĞA SƏSLƏYƏN SƏNƏT

**“Mollanəsrəddinçi şairlər”: Satirik şeirlər. Tərtib edənlər: Abbas Zamanov, Kamran Əliyev. Redaktor və ön söz Abbas Zamanov. Bakı. Yazıçı. 1986. 512 səh.**

«Molla Nəsrəddin» jurnalı bizim yalnız milli mətbuatımızda deyil, hətta yalnız ədəbiyyatımızda və ictimai fikrimizdə yox, ümumiyyətlə, Azərbaycan xalqının mənəvi dünyasında gələcəyə çağıran, işığa səsləyən hərəkət gətirici bir amil rolunu oynamışdır. Bu jurnalın nəşri dövrün mürəkkəb, təxirəsalınmaz milli-mənəvi, vətəndaşlıq tələblərinə cavab verən, yüksək bədii-estetik meyarlarla qiymətləndirilən ədəbi məktəb yaratdı və ən başlıcası isə, «Molla Nəsrəddin» ədəbi məktəbi Azərbaycan ictimai fikrində xalqın təəssübünü çəkən nüfuzlu bir ideologiya səviyyəsinə yüksələ bildi. Geniş xalq kütlələrini «qəflət yuxusundan» oyatmaq, yəni müstəmləkəçiliyin və istismarın meydana çıxardığı cəhalət və nadanlıq girdabından xilas etmək, milli-mənəvi və sosial azadlığa nail olmaq bu inqilabi-demokratik ideologiyanı yaradan bədii-publisist yaradıcılığının əsas qayəsi, məqsədi idi.

Mollanəsrəddinçilik yalnız «Molla Nəsrəddin»də dərc edilən əsərlərlə məhdudlaşmırdı, dövrün qüdrətli ədəbi-ictimai hərəkatına çevrildiyi üçün, onun əhatə dairəsi çox geniş idi. Mollanəsrəddinçilik eyni vətən-

daş ehtirası ilə XX əsr Azərbaycan publisistikasına, nəsrinə, dramaturgiyasına, şerinə sirayət etmişdi. Bu mənada ədəbiyyatımızın yorulmaz tədqiqatçısı və təbliğatçısı Abbas Zamanovun və onun istedadlı gənc həmkarı Kamran Əliyevin birlikdə tərtib etdikləri, Abbas müəllimin redaktəsi və ön sözü ilə nəşr edilmiş «Mollanəsrəddinçi şairlər» kitabı (Bakı, «Yazıçı», 1986) «Molla Nəsrəddin» jurnalının 80 illik yubileyini bayram etdiyimiz bu günlərdə mollanəsrəddinçilik mübarizəsinin vüsətini, yüksək bədii-estetik səviyyəsini, M.Ə.Sabirdən tutmuş Ə.Müznibəcən şairlərin əməl və məqsəd birliyini bir daha əyani şəkildə nümayiş etdirir.

Bu şairlər müxtəlif nəslə mənsub, müxtəlif istedad dərəcəsinə malik qələm sahibləri idilər, lakin belə bir müxtəlifliyi xalq təəssübü baxımından sarsılmaz birlik, ayrılmaz vəhdət səciyyələndirirdi. «Molla Nəsrəddin»in səhifələrində, bu jurnalın təsiri ilə çıxan «Məzəli», «Zənbur», «Tuti», «Babayi-əmir» və digər mətbuat orqanlarının səhifələrində müxtəlif satirik imzalarla yazan M.Ə.Sabir, Əli Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi, M.H.Zeynalov, Ə.R.Şəmsizadə və başqaları bir-birinə poetik şəkildə müraciət edirdilər. (Hophop Sijimquluya, Simruğ Kefsizə, Dabanı Çatdaq Xala Məşədi Sijimquluya, Qızdırmalı Hophopa və s.). Belə bir müraciət, ithaf, bənzətmə, nəzirə XX əsrin əvvəllərində Azərbaycan inqilabi-demokratizm hərəkatında yekdilliyin əzəmətli simfoniyası kimi səslənirdi.



**Cəlil Məmmədquluzadə**




**Molla Nəsrəddin jurnalı**

Cəlil Məmmədquluzadə mollanəsrəddinçilik ideologiyasının banisi, eyni zamanda, dahi Sabiri yetişdirən, Azərbaycan satirik poeziyasında yeni ruhlu və yeni formalı bədii-estetik təmayülün yaradıcısı idi. «Molla Nəsrəddin»in nömrəsində C.Məmmədquluzadə «Lisan bəlası» adlı satirik şerini dərc etdi və bu şer Azərbaycan poeziyasının, xüsusən, onun satirik qolunun inkişafında müstəsna rol oynadı. Sonralar Cəlil Məmmədquluzadə yazırdı: «Bu bir nümunə idi ki, bunu birinci nömrədə dərc etməklə biz, «Molla Nəsrəddin» şairini axtarırdıq. Həyatda varlıqları bizə məlum olmayan Sabiri, Əli Nəzmini axtarırdıq».

«Molla Nəsrəddin» axtardığını tapdı. «Lisan bəlası» şamaxılı şair Sabiri bütün Azərbaycanın Hop-hopu elədi və «Hophopnamə» xalqın ədəbi və mənəvi sərvəti oldu. C.Məmmədquluzadə bir şerlə gələcək yeni və qüdrətli poeziyanın əsas forma və məzmununu müəyyənləşdirdi. Kim bilir, bəlkə də bu şer, daha geniş mənada isə bu əhval-ruhiyyə, ədəbi-ictimai ehtiras olmasaydı, Sabir yaradıcılığı və Sabir məktəbi indiki vüsəti ilə parlamazdı, eləcə də əksinə, Sabir istedadı olmasaydı, həmin ilk şer - «Lisan bəlası» da ötəri bir hadisə kimi ədəbi tariximizin səhifələrində qapanıb qalardı.

Təsadüfi deyil ki, tərtibçilər «Mollanəsrəddinçi şairlər» kitabını bu şerlə açırlar və xüsusi qeyd etmək istəyirik ki, kitabda bu məşhur şerdən başqa, C.Məmmədquluzadənin geniş oxucu kütləsinə tanış olmayan daha on üç şeri verilmişdir. İlk dəfədir ki, oxucular

Cəlil Məmmədquluzadənin şer yaradıcılığı ilə bir küll halında tanış olurlar. 1906-1910-cu illər arasında yazılmış həmin əsərlər böyük ədibin nəsrinə, dramaturgiyasına, publisistikasına daha dərindən nüfuz etmək üçün münbit zəmin yaratmışdı.

Ümumiyyətlə, kitabın qiymətli cəhətlərindən biri budur ki, indiyə qədər az tanınan, hətta unudulmuş mollanəsrəddinçi şairlərin - Məşədi Həbib Zeynalovun, Mirzə Cabbar Əsgərzadənin, Əli Rəmzi Şəmsizadənin, Mirzə Məhəmməd Hatif Axundovun, Əli Məzhun Rəhimovun, Məmmədəli Manafzadə Sabitin, Səməd Mənsurun, Əliabbas Müznibin yaradıcılığı ilə müasir oxucunu ilk dəfə tanış edir, görkəmli romançı M.S.Ordubadini, yaxud tanınmış ədəbiyyatşünas Salman Mümtazı istedadlı mollanəsrəddinçi şairlər kimi təqdim edir.

«Lisan bəlası» şeri aşağıdakı misralarla başlayır:

**Ey dil, dəxi dinmə və sükut et,**
**səni tari,**
**Lal ol və danışma.**
**Sal başını aşağı və heç**
**baxma yuxarı,**
**Mal ol və danışma.**

Bu misralar, əlbəttə, müstəmləkəçilk siyasəti ilə, istismarla, sosial təbəqələşmə ilə, cəhalət və nadanlıqla ölüm-dirim mübarizəsi aparan vətəndaşlıq mövqeyinin ifadəsi idi və məhz bu səpkili əsərlər xalqı «sükut etməməyə», «lal olmamağa», «danışmağa» öz haqqını tələb etməyə səsləyirdi. Sözü kinayə ilə

demək, tipajın dili ilə söyləmək mollanəsrəddinçi şairlərin yaradıcılığında əsas estetik xüsusiyyətə çevrildi və qələmə alınan mövzu ilə dialektik bir vəhdət təşkil etdi.

C.Məmmədquluzadə «Molla Nəsrəddin»in üçüncü nömrəsində dərc etdiyi digər şerində zaman üçün səciyyəvi bir tipin dili ilə «Xoş ol zaman ki, xalq yatıb bizəban idi» - deyir, çünki «Bəzmimiz pilov, çay ilə rəşki-canan idi! Millət qulam idi mənə, bəxtim cavan idi! - dedi. Mollanəsrəddinçi şairlərin yaradıcılığında «yuxulamaq», «yatmaq», «mürgüləmək» ifadələri böyük vətəndaş qayələri ilə nəfəs alan rəmzi bir obraz səviyyəsinə qalxdı. M.Ə.Sabir elə həmin 1906-cı ildə tipin dili ilə «-Tərpənmə, amandır, bala, qəflətdən ayılma! Açma gözünü, xabi-cəhalətdən ayılma!» - dedi, M.H.Zeynalov başqa bir tipin dili ilə: «Yat, düşmə dəxi zərrə qədər rəncə, təlaşla! Tərpənmə əbəs, çək, bala yorğanuvu başə!» - dedi, M.Ə.Sabir: «-Ay mömin olan, yat, dəxi qəflətdən ayılma!» - deyə öldürücü bir sarkazm ilə fəryad qopardı, Səməd Mənsur isə sözü müstəqim şəkildə işlədərək bir vətəndaş dili ilə: «Millət, sən də ayıl bir qeyritək meydana çıx!» - deyə səsləndi.

Lakin mollanəsrəddinçi şairlər avamların, fanatiklərin, nadanların bu «qəflət yuxusu» ilə bərabər, xalqdakı oyanışı da görür və belə bir oyanma prosesi ilə barışa bilməyən zəmanə qolugüclülərini - çar məmurlarını, istismarçı zümrəni, yalançı dindarları satiranın gücü ilə ifşa edirdilər. Məhz belə bir

ümumxalq oyanma, ayılma prosesi getdiyi üçün, deyək ki, fəhlə artıq öz haqqını tələb edirdi və bununla da Sabirin parlaq bədii boyalarla yaratdığı tipi qəzəbləndirirdi: «-Nə soxulmusan arəyə, a başı bəlalı fəhlə?!» Başqa bir tip isə xalqın oyanması ilə bağlı dərin təəssüf hissi keçirirdi: «-Ax!.. Necə kef çəkməli əyyam idi, onda ki, övladi-vətən xam idi!».

Qarşımızdakı bu kitab mollanəsrəddinçi şairlərin yaradıcılığına xas olan mühüm cəhəti bir daha qabarıq şəkildə nəzərə çarpdırır: dünya poeziyasında çox nadir hadisədir ki, hər bir şer öz-özlüyündə, ayrı-ayrılıqda təsəvvürümüzdə bütöv tamamlanmış bir xarakter, tip, psixologiya canlandırır və bu əsərləri bir küll halında götürdükdə isə, saysız-hesabsız rəngarəng xarakterlər qalereyası ilə üz-üzə dayanırıq - yalançı «millət qəhrəmanları», cahil hacılar, nadan qoçular, şorgöz və tamahkar «qırmızısaqqal» məşədilər, «naz ilə gəzən» boşboğaz, «boynu qraxmallı» inteligentlər, «-Küpədə milləti qatıq kimi çalxalaram! Kərəsini işlədərəm, ayranın həm yalaram!» (M.C.Əsgərzadə) - deyə öyünən zəmanə qolugüclüləri, müstəmləkəçilik siyasətini həyata keçirənlər, öz dilinə, məişətinə, adət-ənənəsinə ağız büzən «oxumuşlar»... Bu tiplər, xarakterlər qalereyası o qədər zəngindir ki, onların təsnifatını vermək, psixoloji aləmini açmaq üçün biz hələ çox çalışmalıyıq.

Mollanəsrəddinçi poeziya, eyni zamanda, parlaq obrazlar sisteminə malikdir və güclü ümumiləşdirmələr yolu ilə yaranmış həmin obrazlar öz-özlüyündə

sadə sözlər, sadə anlayışlardır. Misal üçün, eyni mənalı «məktəb», «oxumaq», «dərs» obrazlarını götürərək, M.Ə.Sabirin məşhur şerlərini xatırlayaq: məktəbə münasibət psixologiyaları müəyyənləşdirir, xalqın gələcəyinə münasibətin sinoniminə çevrilir. Əli Nəzminin qələmə aldığı tip «-Məktəb demə, ondan sarı qəlbim dolu qandır!» - deyir. Yaxud Ə.Qəmkü-sarın yaratdığı tip «-Şeytan işidir, düşmə yaxın dərsə, kitaba, əfsanəyə uyma!» - deyə nəsihət verir. M.S.Ordubadinin seçdiyi tip «-Bir söylə görüm məktəbi-ürfan nəyə lazım?» - deyə yana-yana soruşur. Bütün bu şikayətlər, nəsihətlər, suallar, hədə-qorxular, təkrar təsiri bağışlamır, çünki mollanəsrəddinçi şairlər bir-birini təkrar etmirdilər. Onlar adicə olaraq eyni məqsəd naminə mübarizə aparırdılar.

Yeri gəlmişkən, bir məsələni də qeyd etmək istəyirik. Mollanəsrəddinçi poeziyasının lideri, ən nüfuzlu nümayəndəsi M.Ə.Sabir idi və onun yaradı-cılığı həm böyük emosional təsir, həm də ədəbi təsir gücünə malik idi. Ə.Nəzminin, Ə.Qəmküsarın, Ham-balın, M.Ə.Möcüzün və digər görkəmli mollanəsrəd-dinçi şairlərin yaradıcılığında açıq-aşkar Sabir təsirini görmək çətin deyil, lakin ən əhəmiyyətli cəhət burasıdır ki, onları qətiyyən epiqonçu şairlər kimi qiymətləndirmək olmaz. Epiqonçuluq kor-koranə yamsılamaqdır, mollanəsrəddinçi şairlər isə Sabirin dərin təsirini hiss etsələr də, qələmə aldıqları tipləri özləri görür, özləri həyatdan seçirdilər. Biz hər bir

şerdə onların, yaradıcı bir fərd kimi, ürəklərinin ağrısını hiss edirik.

Mollanəsrəddinçi şairlərin ürək ağrısı pessimizmə, əlacsızlığa gətirib çıxarmırdı, əksinə, onların mübarizliyinə, qorxmazlığına daha artıq bir şövq verirdi. Məhz belə bir qorxmazlığın nəticəsi idi ki, M.Ə.Sabir: «-Harda müsəlman görürəm, qorxuram!.» - deyirdi, yaxud Ə.Nəzmi «Molla Nəsrəddin» jurnalına müraciətlə «-Qorxuram, Molla, tökülsün axırı qanın sənin» - deyirdi.

Bu cür vətəndaş cəsarətinə arxalandığı üçün «Molla Nəsrəddin» ənənələri qalib mübarizəyə və qalib ənənəyə çevrildi.

Haqqında danışdığımız kitab bir daha belə bir cəhəti qabarıq şəkildə nəzərə çarpdırır ki, «Molla Nəsrəddin» ədəbi məktəbinin yaratdığı mənəvi sərvət məhz mollanəsrəddinçi təşəbbüskarlığı ilə təqdim edilməli və üzə çıxarılmalı və bu kitabda olduğu kimi, həmin ədəbi məktəbə layiq şəkildə müasir oxuculara çatdırılmalıdır.

**İşığa səsləyən sənət. Kommunist qəzeti. 1989-22 sentyabr. Seçilmiş əsərləri. 10 cilddə. Redaktor Dilsuz. Bakı. Çinar-çap. 2005. VII C. Səh 470-474.**

# O, BEYNƏLMİLƏLÇİ «MİLLƏTÇİ»DİR

**- Abbas müəllim, səhv etmirəmsə tale sizi erməni millətçilərinin riyakarlığı ilə ikinci dəfə üzləşdirir...**

- Erməni daşnaklarının fitnə-fəsadları ilə çox üzləşmişəm. Ancaq ikinci dəfədir ki, bu qonşu xalqın qanlı faciələrə sürükləndiyinin canlı şahidiyəm. 7-8 yaşım ancaq olardı. Naxçıvan elatının, o cümlədən Şərur rayonunun camaatı vahimə içində yaşayırdı. Erməni daşnaklarının hücumlarından yaxa qurtarmaq üçün çoxu Cənubi Azərbaycana qaçırdı.

1918-ci ildə bizim Maxta kəndinin sakinləri də İrana keçməli oldular. Anam rəhmətə getmişdi. Atam, qardaşım İsmayıl və mən Xoy şəhərində sığınacaq tapdıq. Atam bir ərbabın yanında muzdurluq edirdi. Həyat şəraiti çox çətin idi. Qardaşım bu məhrumiyyətlərə dözməyib öldü...

Daşnak hökuməti devriləndən sonra kəndimizə qayıtdıq. Nə cütümüz vardı, nə öküzümüz. Belə olanda əkinçinin əli hər yerdən üzülür. Atam da qalmışdı naəlac.

**- Bəs uşaq evinə necə düşdünüz?**

- Elə dolanışığın çətinliyinə görə. Atam ikinci dəfə evlənmişdi. Körpə bacı-qardaşım vardı. Kişi gördü ki, ailəni dolandıra bilmir, məcbur olub məni uşaq evinə verdi. Bir müddət Naxçıvanda qaldım, sonra Bakıya

göndərdilər. Bakıya məni atam gətirdi. Uşaq evinin müdiri harasa getmişdi. Qatarın geri qayıtmasına az qalırdı. Ona görə atam onu gözləyə bilmədi. Məni uşaq evinə qoyub qayıtdı.

Axşamüstü uşaq evinin müdiri Səkinə xanım Rəsizadə gəlib çıxdı. Bu mehriban qadın Hüseyn Cavidin bacısı idi. Məni yanına çağırıb başımı sığalladı:

- Adın nədir?

- Mirabbas...

O, üzünü katibəsinə tərəf çevirdi:

- «Miri»ni at, Abbası saxla, - Sonra yenə soruşdu.

- Atanın adı nədir?

- Mir Fəttah.

- «Miri»ni at, Fəttahı saxla. Bəs familin?

- Seyidzamanov...

- «Seyid»i at, Zamanovu saxla.

Beləliklə, mən oldum Abbas Fəttah oğlu Zamanov. Naxçıvandakı qohum-qardaşın isə familiyasının «Zaman»ını atıblar. Onların hamısı indi Seyidovdur.

**- Deyirlər sizi uşaq evindən qovmaq istəyiblər? Bu doğrudurmu?**

- Bəli olub. Bunun da qəribə tarixçəsi var. Atam əkib-becərdiyi bostandan üç-dörd yemiş-qarpız gətirib evin qabağında gözəyarı qəpik-quruşa satırmış. Bunun üstündə onu «kulak» adlandırıb səsini alırlar. O vaxt səsin alınması çox dəhşətli idi. Həmin adam səs verə bilməzdi və bütün qapılar üzünə bağlanardı. Sonra götürüb Mərkəzi Komitəyə bir məktub da yazırlar ki,

bəs filan «kulak»ın oğlu uşaq evində asudə yaşayır. O vaxt Əliheydər Qarayev Mərkəzi Komitənin katibi idi. Məktubu oxuyandan sonra məni yanına çağırtdırdı.

Bir gün uşaq evinin xidmətçisi Manya xala mənə dedi ki, hazırlaş, Mərkəzi Komitəyə gedəcəksən. Təəccübdən ayaqlarım yerə yapışdı. Mənim Mərkəzi Komitədə nə işim vardı? Mən uşaq evinin direktoru Nina Kadışeva ilə birlikdə Mərkəzi Komitəyə getdim. Əliheydər Qarayev bizi gözləyirdi. O, Bakı şəhər Daxili İşlər şöbəsinin rəisi Məmmədəmin Şəkinskiyə zəng edib yaınna çağırdı. Sonra məktubu çıxarıb oxudu və dedi ki, bunu uşaq evində saxlaya bilmərik. Elə söhbətin bu yerində M.Şəkinski gəlib çıxdı, Allah ona rəhmət eləsin. Dedi, siz nə danışırsınız, biz belə uşaqları küçədən yığıb oxutdururuq ki, oğurluq, quldurluq eləməsinlər, oxuyub savad sahibi olsunlar. Tutaq ki, bunu uşaq evindən qovduq, bəs sonra? Xuliqanlıq edənlərin sayı bir nəfər də artacaq.

Şəkinskinin sözləri təsirsiz qalmadı. Qarayev Kadişevaya dedi ki, bu oğlanın uşaq evində qalmasına etirazımız yoxdur, durun gedin.

Əgər həmin gün Məmmədəmin Şəkinski yerində olmasaydı, yaxud vaxtında gəlib çıxmasaydı, Allah bilir sonrakı taleyim necə olacaqdı. Mən beş il uşaq evində yaşadım və onunla üzbəüzdəki şura məktəbində oxudum. Hamı bu təhsil ocağına Balabəy İsrafilovun məktəbi deyirdi. Qori seminariyasında təhsil almış Balabəy bu məktəbin direktoru idi.

İbtidai məktəbi bitirəndən sonra pedaqoji məktəbə daxil oldum. O vaxt texnikum indiki Əlyazmalar İstitutunun binasında yerləşirdi. Qəbul imtahanını Hüseyn Cavidlə Abdulla Şaiq götürdülər. A.Şaiq yazı taxtasına belə bir mövzu yazdı: «Şəhər kəndə nə verir, kənd şəhərə nə verir?» texnikumda Pənah, Məmməd Zəki Dursunzadə, Şamo Cəbrayılbəyli və başqa məşhur müəllimlər dərs deyirdilər. Repressiya dövründə onların çoxunu tutdular. Hüseyn Cavid də pedaqoji texnikumda işləyirdi. Ancaq o, yuxarı kurslara dərs deyirdi.

**- O vaxt Hüseyn Cavidlə heç söhbət etmisinizmi?**

- Bir dəfə H.Cavid, Ə.Cavad və A.Şaiq texnikumun giriş qapısında dayanmışdılar. Mən də bir neçə yoldaşımla orada idim. Hüseyn Cavid məni yanına çağırıb dedi:

- Oğlum, get bir fayton gətir.

- Mən qorxa-qorxa qapıçı Əhmədə baxdım:

- Axı Əhməd kişi içəri buraxmayacaq...

O zaman texnikumda oxuyanlar həftədə bir gün gəzə bilərdilər. Qalan günlərdə isə saat 4-dən 6-dək texnikumdan çıxmaq olardı. Beşcə dəqiqə gecikəni Əhməd kişi içəri buraxmazdı. Cavid əfəndi gülümsədi:

- Qorxma, get, Əhməd kişidən xahiş edərik səni buraxar. O zaman faytonçular indiki urologiya xəstəxanasının qabağında dayanardılar. Gedib bir faytona mindim və texnikumun qabağına gətirdim...

Hüseyn Cavidlə bağlı başqa bir xətirəm yoxdur. Ancaq texnikumun pəncərəsindən səliqəli geyimi, gur saçı ilə seçilən Əbdürrəhimbəy Haqverdiyevi, həmişə qayğılı görünən Cəfər Cabbarlını tez-tez görürdük. Həmin illərdə onları yer-li-yersiz incidirdilər. C.Cabbarlını ədəbi mühakimələrdən əlavə, müsavatın ideoloqu kimi üç dəfə həbs ediblər.

**- Texnikumu qurtarandan sonra harada işlədiniz?**

- Atraxanbazar (indiki Cəlilabad) rayonunun Üçtəpə kəndində bir il müəllim işlədim. Sonra rayon komsomol komitəsinin katibi seçdilər. Bir il də bu vəzifədə çalışandan sonra məni «Gənc işçi» qəzetinə redaktor müavini qoydular. O zaman «Gənc işçi» redaksiyası bütün ədəbi hadisələrin təşəbbüsçüsü və təşkilaçısı idi. Burada gənc şair və yazıçıların görüşləri keçirilir, onlara yaradıcılıq məsləhətləri verilirdi. S.Vurğun, M.Müşfiq, S.Rüstəm, Əbdülbaqi Fövzi və başqaları belə ədəbi görüşlərdə tez-tez çıxış edirdilər.

Sonra «Ədəbiyyat» qəzetində, daha sonra isə Azərnəşrdə işlədim. O vaxt Azərnəşrin direktoru indiki baş nazirimizin atası Əlihüseyn Hüseynov idi. Rəhmətlik çox mədəni və ziyalı adam idi. Sonralar bir müddət «Kommunist» qəzetinin redaktoru da oldu.

**- Ömrünüzün beş ili Boyük Vətən müharibəsi cəbhələrində keçib. İndi müharibə iştirakçılarına qayğı göstərmək əvəzinə onlara ikrahla baxanlar da var...**

- Çox nahaq yerə. Kim fikirləşirsə ki, faşistlər Azərbaycana azadlıq gətirəcəkdilər, səhv edirlər. Faşizm əvvəl də, elə indi də taundur. Taun isə insanlara ancaq ölüm, faciə gətirə bilər.

Mən müharibənin əvvəlindən axırına kimi cəbhədə olmuşam. Əvvəlcə «Döyüşən Krım», sonra «İrəli» qəzetlərində həmyerlilərimizin qəhrəmanlarından söhbət açmışam. Cəbhə dostlarım Rəsul Rza, Cəfər Cəfərov, Nüsrət Bağırov, Nəsir İmanquliyev, Seyfulla Əliyev, İbrahim Novruzov və başqaları bir əlində silah, o biri əlində qələm tutaraq min bir məhrumiyyətə ona görə dözürdülər ki, Azərbaycana düşmən ayağı dəyməsin, qız-gəlinlərimizin namusu, isməti tapdalanmasın. Yeri gəlmişkən, bəzi cavanlara həyat sınağından çıxmış bir həqiqəti xatırlatmaq istəyirəm: keçmişə güllə atanı gələcək topa tutacaq.

Müharibədən əvvəl Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil oldum. Yaşlı olduğum üçün müəllimlərlə oturub-dururdum. Bir gün Səlim Cəfərov dedi ki, sən elə bizim qədər bilirsən, daha niyə vaxt itirirsən. Sənədlərini hazırla ver ZPİ-yə (Qiyabi Pedaqoji İnstituta). Elə də etdim. Azərnəşrdə işləyə-işləyə bu institutu iki ilə qurtardım. Rəhmətlik Feyzulla Qasımzadə təklif etdi ki, qalıb burada ədəbiyyat nəzəriyyəsindən dərs deyim. Bir müddət qiyabi institutda işlədim. Sona Mirzə Feyzulla məni universitetə aparıb filologiya fakültəsinin dekanı Əli Sultanlı ilə tanış etdi. Həmin fakültədə ədəbiyyat nəzəriyyəsindən və XX əsr Azərbaycan ədəbiyyatı

tarixindən dərs dedim. Sabirlə, Mirzə Cəlillə bağlı sənədləri də o vaxtdan toplamağa başladım.

**- Bu yaxınlarda bir müsahibədə oxudum ki, Abbas Zamanovun ziyalı sayıqlığı olmasaydı, Naxçıvan Muxtar Respublikası Ermənistana ilhaq ediləcəkdi...**

- 60-cı illərdə belə bir təhlükə vardı. Mən S.M.Qənizadə haqqında materiallar toplayırdım. Qori seminariyasının sənədlərinə baxmaq üçün Tbilisiyə, oradan da Yerevana getdim. Yerevanda bir azərbaycanlı müəllim mənə dedi ki, Naxçıvan Muxtar Respublikasının Emənistana verilməsi haqqında sənəd hazırlayırlar. Bu məsələ ilə əlaqədar bir neçə dəfə mitinq də keçirilib. Hətta Meğri rayon partiya komitəsinin katibi Ali Sovetin sessiyasında çıxış edib deyib ki, Azərbaycan tərəfi tələbimizə razı olmasa, Naxçıvana bir qatar da buraxmayacağıq.

Yerevandan təzəcə qayıtmışdım. Elmlər Akademiyasının böyük iclas salonunda S.Vurğunun xatirəsinə həsr olunmuş gecə keçirilirdi. Salon ağzına kimi dolu idi. Mənə söz verildi. S.Vurğundan, xalqlar dostluğundan danışdım. Sonra da dedim ki, bu dostluğu pozmaq istəyənlər var. Bu yaxınlarda Yerevana getmişdim. Orada Naxçıvanın Ermənistana ilhaq edilməsilə əlaqədar sənədlər hazırlanır, mitinqlər keçirilir. Əgər Səməd sağ olsaydı, şübhəsiz deyərdi ki, Naxçıvanın bir qarışını da heç kimə verməyəcək...

Salonda elə bil bomba partladı. Bir gurultu qopdu ki, gəl görəsən. Milli hiss həm qüvvətlidir, həm də

qorxuludur. Əgər axşam desəydim ki, Rəyasət Heyətində oturanların hamısını beşinci mərtəbədən atın, o dəqiqə atardılar.

Səhəri gün məni partiyadan və universitetdən çıxartdılar. Nizami institutuna 83 manatlıq bir işə göndərdilər. Mən ərizə yazıb partiya bürosunun qərarı ilə razılaşmadığımı bildirdim və xahiş etdim ki, sənədlərimi göndərsinlər Moskvaya.

Çıxışı hərə bir cür qarşılamışdı. Vətənpərvər ziyalıların böyük əksəriyyətinin ürəyindən xəbər vermişdim. Rəsul Rza məni küçədə qucaqlayıb öpdü. Ali məktəb tələbələrinin və partiya yığıncağındakı bəzi çıxışlarda isə ünvanıma kəskin sözlər deyilmiş, məni inqilabçı adlandırmışdılar.

...Bu hadisənin ikinci günü səhər tezdən qapımız bərk-bərk döyüldü. Durub açdım. Gördüm ki, kənddə yaşayan qardaşım İsmayıldı (atam kiçik qardaşıma böyük oğlunun adını qoymuşdu). İsmayılın gözləri dolmuşdu. Soruşdum niyə ağlayırsan? Dedi səni sağ-salamat gördüyümə görə. Dünən Türkiyə radiosu xəbər verdi ki, Bi-Bi-Si-nin məlumatına görə universitetin müəllimi Abbas Zamanov Naxçıvanın Ermənistana ilhaqını pislədiyinə görə onu qurğuşuna tutublar, yəni güllələyiblər.

Dörd il get-gəldən sonra, nəhayət, məni Sovet İKP MK yanında Partiya Nəzarəti Komitəsinin sədri Nikolay Şvernik qəbul etdi. Həmin illərdə Sabirin ərəb əlifbası ilə şeirlərini buraxmışdım. Türkiyədə yazmışdılar ki, Sovet ədəbiyyatçısı Abbas Zamanov

Sabirə beynəlmiləlçi damğası vurub. N.Şvernikə dedim ki, xaricdə mənə beynəlmiləlçi deyirlər, bizdə millətçi. Yaxşı, siz deyin, bəs mən kiməm? O da cavab verdi ki: «Tı naş çelovek». Sonra məni partiyaya bərpa etdilər, əvvəlki iş yerimə qaytardılar.

**- Yaxşı dost çətin gündə tanınar, deyiblər, O vaxt sizə kimlər kömək edirdi?**

- Cəfər Cəfərov məni tək buraxmırdı. Məni oğlunun toyuna da çağırmışdı. Çox adam xeyrə-şərə dəvət etməyə belə qorxurdu. Bir gün Uşaqgəncnəşrin baş redaktoru Seyfulla Şamilovla küçədə rastlaşdım. Dedi bir mənə dəyərsən. Getdim yanına. Durub qapını bağladı, seyfdən bir qalın kitab çıxarıb dedi:

- Bilirəm, pula ehtiyacın var. Bu kitabı tərcümə elə. Öz adımdan çap edəcəyəm, qonorarını da verəcəyəm sənə.

Gənclər təşkilatının işi haqqında kitab idi. Çox asan tərcümə olunurdu. İşdən sonra birbaşa makinaya diktə etdim, aparıb verdim. İki-üç aydan sonra yenə zəng vurub məni çağırdı. Kitab çapdan çıxmışdı. Mənə xeyli pul verdi. Həmin pulla ailəmi yarım il gen-bol dolandıra bilərdim. Dedi apar xərclə. Bir daş altda, bir daş üstdə.

Respublika partiya təşkilatının birinci katibi Vəli Axundovdan da çox razıyam. Ziyalı, barışdırıcı adam idi. O, dörd ildə mənə çox kömək etdi. Hər səhər gedirdim Əlyazmalar fonduna, bir də axşam çıxırdım. Günorta yeməyimi də özümlə aparırdım. Dörd ildə 5-6 kitab hazırladım. Ancaq nəşriyyat rəhbərləri qor-

xudan onlara yaxın durmurdular. Mərkəzi Komitənin bürosunda dedim ki, siz mənimlə qəddarcasına rəftar edirsiniz. İşdən çıxarmısınız, üstəlik kitablarımın çapına da imkan vermirsiniz. V.Axundov Şıxəli Qurbanovdan soruşdu ki, bunun kitablarının çapına kim mane olur? O, cavab verdi ki, nəşriyyat rəhbərləri ehtiyat edirlər. V.Axundov elə mənim yanımda dörd nəşriyyata zəng vurdu. Bu zəngdən sonra kitablarım dalbadal çap olundu.

**- Bəs Naxçıvan məsələsi necə həll olundu?**

- Ermənilər əl çəkmirdilər. Bir qrup ziyalı Moskvaya - Mərkəzi Komitəyə məktub yazmışdı. Həmin məktubda deyilirdi: nə qədər ki, Naxçıvan Ermənistana verilməyib, bu respublikada milli məsələ həll olunmayacaq.

Ermənistanda Sovet hakimiyyəti qurulmasının 40-cı ildönümünə N.S.Xruşşov Yerevana gəlmişdi. Onu çox yerlərə aparıb gəzdirəndən sonra Naxçıvan məsələsini açırlar. Başı dumanlı Xruşşov deyir ki, narahat olmayın, mən bu məsələni aydınlaşdıraram. Doğrudan da Moskvaya qayıdandan sonra sənədləri nəzərdən keçirir. Qars müqaviləsi dördtərəfli danışıqlar zamanı imzalanan sənədlərlə tanışlıqdan sonra qəti şəkildə deyir ki, biz ərazi məsələsini heç vaxt müzakirə etməyəcəyik. Təəssüf ki, Qorboçovda məhz bu qətiyyət çatışmadı.

**- M.Ə.Rəsulzadəni çox az adam tanıyanda siz ilk dəfə onun adını çəkənlərdən olmusunuz, şəklini iş otağınızda başınızın üstündən asmısınız...**

- Lap cavan ikən Moskvada Lenin adına kitabxananın bağlı fondunda Məmməd Əminin «Əsrimizin Səyavuşu» əsərini oxumuşam. Sonralar da onun bəzi məqalə və əsərlərini mütaliə etmişəm. Ancaq xalqımızın bu cəfakeş oğlunun qəbrini ziyarət etdiyim gün həyatımın ən işıqlı səhifəsidir. Səlcuq universitetinin fəxri doktoru adını alanda məni Konyaya dəvət etdilər. Yola düşməzdən əvvəl getdim Novxanıya. Atası Hacı Axund Ələkbərin qəbrinin üstündən torpaq götürdüm. Bir dəstə də Novxanı gülü bağlatdırdım. Ankaranın Əsri qəbiristanlığında Məmməd Əminin qəbrinin üstünə həmin torpağı səpdim, solmuş qərənfilləri qoydum...

Bu gün M.Ə.Rəsulzadənin, ümumiyyətlə, Azərbaycanı müstəqil görmək istəyənlərin arzu və ümidləri göyərir.

Ancaq çox adam yaşadığımız tarixi şəraiti lazımınca qiymətləndirmir. Son vaxtlar bəzi partiyalar və onların mətbuat orqanları yaradılıb. Bunlar, əlbəttə, çox yaxşıdır. Lakin bu partiyalar arasında yersiz çəkişmələri görəndə dərin təəssüf hissi keçirirsən. Axı Azərbaycanın müstəqilliyi hamımızın amalı olub. İndi bu müstəqilliyi qorumaq əvəzinə qarşıdurma yaratmaq ən azı milli xəyanətdir.

**- Abbas müəllim, oxucular sizi Azərbaycan ədəbiyyatının cəfakeş tədqiqatçısı, maraqlı əsərlər müəllifi kimi tanıyırlar. İndi hansı kitabların çap olunmasını istərdiniz?**

- Sabir haqqında çox yazılıb. Ancaq onun böyüklüyü oxucuya hələ tam çatdırılmayıb. Sabir haqqında dolğun monoqrafiya oxucuya hələ tam çatdırılmayıb. Sabir haqqında dolğun monoqrafiya yazılmasını arzu edərdim. «Molla Nəsrəddin» jurnalının o biri cildləri də çap olunmalıdır. Azərbaycan ictimai fikrinin formalaşmasında «Füyuzat» jurnalının xidməti «Molla Nəsrəddin»dən az olmayıb. Mirzə Cəlil bu məcmuə haqqında heç vaxt pis söz deməyib. Əgər «Füyuzat»da bəzi ziddiyyətli məqamlar varsa, bu dövrün, zamanın təzadlarıdır. Bu jurnalın da ayrıca kitab şəklində çap olunması çox yaxşı olardı.

Mən Bakıda M.Ə.Rəsulzadənin, H.Cavidin, Mirzə Cəlilin, Ömər Faiqin heykəllərinin qoyulmasını arzulayıram. Üzeyir bəy Nərimanovun sayəsində sağ qalıb. O, minlərlə ziyalımızı ölümdən, sürgündən qurtarıb. İndi çoxları Nərimanov haqqında insafsızcasına danışır. Azərbaycan tarixində onun əvəzsiz xidmətləri var. Arzu edərdim ki, bu heykəl (Abbas müəllimin yaşadığı bina N.Nərimanovun heykəlinin yanındadır. O, pəncərədən həmin heykəli göstərir) həmişə üzü dənizə baxsın...

**Söhbəti yazdı:**
**Əlipənah BAYRAMOV**
**«Xalq qəzeti»nin müxbiri**
**6 noyabr 1992-ci il**

# MƏHƏBBƏT DOLU ÜRƏK GƏTİRMİŞƏM

(Türkiyə səfəri)

Dünya yaranışından belədir. Onun zaman adlı karvanı heç nəyə, heç kimə məhəl qoymadan öz ləngərli yerişi ilə irəliləyir. Dünənimizdə qalan il bizim üçün tarixləşir, bizim üçün adiləşir. Çox çətinliklə üzləşdiyimiz 1989-cu il öz köçünü sürüb, yerini ümidlə gözlədiyimiz yeni ilə verir. Bu əbədi, əzəli təhvil-təslim anında insanların birgə yaşayıb-yaratmaq arzusu, sabaha inamı dəyişməz qalıb. Bəs, görülmüş işlər mənasında keçən ildən bizə nə qalıb? Təbii ki, hərənin cəmiyyət qarşısında, xalq qarşısında öz borcu var. Tədqiqatçı və yaradıcı adam üçünsə konkret vaxt məhfumu mövcud deyil, illərlə gecəli-gündüzlü çəkilən zəhmət bir anda da bəhrə verə bilər. Amma nə deyirlər desinlər, hər ilin öz yeri, öz çaları, öz sevinci var həyatımızda. Filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan EA-nın müxbir üzvü Abbas Zamanov üçün də yəqin ki, hansı ilsə yaddaşında xüsusi yaşayır. Ancaq bütövlükdə onun həyatı, fəaliyyəti müqəddəs bir işə - Azərbaycan ədəbiyyatının öyrənilməsi və təbliğinə həsr olunmuşdur. Onun ayrı-ayrı dövrlər, müxtəlif üslublu yazıçı və şairlər haqqında tədqiqləri, araşdırmaları, kitabları, hər şeydən əvvəl, ədəbiyyatı-

mızın xarici ölkələrdə yayılmasında əvəzsiz, gərgin işi hamımıza yaxşı bəllidir. Astanasında dayandığımız il yorulmaz tədqiqatçı üçün daha bir cəhəti ilə seçilir - o, Türkiyə Səlcuq universitetinin fəxri doktoru seçilmiş-dir. Qocaman alimin kitablarla zəngin otağında o özü, tarix elmləri doktoru T.Bünyadov, filologiya elmləri doktoru Ş.Səfərov söhbət edirik. Arabir söhbətə ara verib diplomun təqdim edilməsi mərasimi ilə əlaqədar «Türkiyyənin səsi» radiosunun əməkdaşı Seyfəddin Altaylının hazırladığı reportaja qulaq asırıq.

Görəsən, nədən başlayaq? Təbii ki, səfər təəssüratı yoldan başlanır. Elə ki, təyyarəyə (yaxud qatar) mindin, kimliyindən asılı olmayaraq uşaqlığın ilkin-liyi, ömür yolun birdən-birə xəyalında canlanır. Yurd ətrinin, vətən torpağının həsrətini çəkirsən, qəlbində hisslər aşıb-daşır, ayıra bilmirsən ki, bu sevincdir, ya kədər. Ancaq vaxt öz sözünü deyir, dünyanın o məc-hul guşəsində, getdiyin yerdə bir ocaq, bir ümid işığı görüb daxilindəki anlaşılmaz hissləri axır ki, bir yönə salırsan. Hamımız üçün yaxın, eyni zamanda uzaq olan Türkiyə Abbas müəllim üçün bir o qədər məchul olmasa da hər halda onun özünəməxsusluqları, qəribə-likləri var.

Elə bu yaxınlara qədər sərhədlərimiz arasında qalın divar var idi, bir-birimizi yaxşı tanımırdıq. Qapıbir qonşularımızın yaşayış tərzindən də, ədəbiy-yatından, mədəniyyətindən də xəbərsiz qalmışdıq. Hər şeyi sanki qara pərdə arxasından görürdük. Ilkinli-yimizi düşünmək, türk adı çəkmək bütöv bir xalqa

yasaq edilmişdi. Yaxşı ki, son vaxtlar bu sədd götürülmüş, gediş-gəliş artmış, ədəbi-mədəni əlaqələrimiz genişlənmişdir. Ancaq Abbas Zamanov gözəgörünməz Çin səddinə baxmayaraq uzun illər şair və yazıçıları ədəbiyyat xadimləri ilə əlaqə saxlamış, məktublaşmış, mənəvi və ədəbi irsimizin tanınması üçün çalışmışdır. Bax, elə bu zəhmətinə görə alimimizin adı dünyanın bir çox ölkələrində hörmət və ehtiramla çəkilir. Bircə fakt deyim. Onun göndərdiyi kitablar əsasında Ərzurumdakı Atatürk universitetində bir kitabxana yaradılmış və yorulmaz alimimizin adını daşıyır. Söhbət zamanı A.Zamanovun dediyi sözləri xatırlayıram: «Müxtəlif ölkələrdə yaşamağımız bizim dostluq, yaxınlıq duyğularımıza soyuqluq gətirməməli, əksinə mənəvi yaxınlıq körpüsü, əlaqələr hər vasitə ilə genişləndirilməlidir. Çünki mədəniyyət insanları mənən yaxınlaşdırır, onları bir amala - qarşılıqlı hörmət və xeyirxahlıq hisslərinə yönəldir». Belə olan tərzdə özümüzə ruhən mənən yaxın olan bir xalqın, doğma, ədəbi-mədəni xəzinəsini öyrənmək niyə məqbul sayılmalıdır? Təəssüflə qarışıq sevinməyə də dəyər ki, ədəbiyyat tariximizdəki bu boşluq A.Zamanovun səyi və əməyi sayəsində müəyyən dərəcədə aradan qaldırılmışdır.

...Moskvada, səfirlikdə az qala Abbas müəllimin Türkiyə səfəri baş tutmayacaqdı. Pasportun Respublika Xarici İşlər Nazirliyində, ya da universitetin xarici əlaqələr şöbəsində də ləngidiyini bildirən azərbaycanlı Benyamin Həsənov az qala öz laqeyid-

liyi ilə səbirsizliklə gözlədiyimiz bir hadisənin qarşısını alacaqdı. Görəsən, insanlarda belə soyuqluq, laqeydlik haradan yaranır? Abbas müəllim də deyir ki, bir çoxlarının daxilindəki bu hissi axıra qədər duya bilmirəm. Bəlkə də bu təbiətimdən irəli gəlir, hamını insan kimi görürəm, hiss edirəm. Bu hadisə mənim yaman mütəəssir etdi. Bakıya qayıtmaq qərarına gəldim. Görünür, bu sirli-sehirli siyasət aləmini aşkarlamaq hələ çox vaxt aparacaq. Yaxşı ki, Abbas müəllimi müşayiət edən şəxs ikinci dəfə səfirliyə yollanır və bir rus qadını pasportu tapıb onlara verir. Beləliklə, noyabr ayının 10-a nəzərdə tutulmuş təntənəli yığıncaq bir neçə gün ləngiyir.

Moskva-Ankara təyyarəsi mavi ənginliklərə üz tutur. Səfər təəssüratının oyatdığı kövrək hisslər yuxarıda dediyimiz kimi onu da ağuşuna alır....

Yüzlərlə adam təyyarənin yerə enməsini səbirsizliklə gözləyir. Abbas müəllim zarafatla deyir: - Qarşılama çox yüksək səviyyədə keçdi, heç dövlət rəhbərini də belə qəbul etmirlər. Müsafirxanada ona dörd otaq ayırırlar və bir saat vaxt verirlər. Deyilən vaxtda 20 nəfər gəlir, onu Ankaranı gəzməkdə müşayiət edir, məclislərdə olurlar. Ankara nəinki 20 il əvvəlki, heç 4-5 il əvvəlki şəhər deyil. Mağazalarda bolluqdu, onlar ixtisaslaşdırılmışdır. Türkiyə radiotexnika sahəsində dünyanın qabaqcıl ölkələri sırasındadır. Ayrılan vaxt başa çatır, dəstə Konyaya yola düşür. Onu da deyək ki, bütün görüşlərdə, söhbətlərdə, gəzintilərdə Abbas müəllimi məşhur alim, professor

Əhməd Erçilasun müşayiət etmişdi. Konyada Abbas müəllimi şəhərin valisi, Səlcuq universitetinin rəhbəri Xəlil Cin başda olmaqla müəllimlər, tələbələr, jurnalistlər, Milli geyimli qızlar şərbət və gül-çiçək dəstələri ilə qarşılayırlar. Hörmətli qonaq şəhərlə tanış olur, C.Ruminin muzeyinə gedir, onun qəbrini ziyarət edir. Şairin Əfqanıstanın Bəlx şəhərindən doğma yurduna gətirilmiş məzarını Türkiyyənin hər yerindən, eləcə də Şərq ölkələrindən müntəzəm olaraq ziyarətə gəlirlər. Səfərin ən yaddaqalan hadisəsi Abbas müəllim üçün Məmməd Əmin Rəsulzadənin məzarını ziyarət etməsidir. Burada yuxarıda adını çəkdiyimiz reportajdan bir fraqmenti nəzərinizə çatdırmaq istəyirəm: «Bizim üçün xoş bir hadisədir ki, Dədə Qorqud oylağı, gözəllər və igidlər məskəni-Azərbaycanın əziz oğlu, professor Abbas Zamanov Anadoluya qonaq gəlib. Öz sevincimizə sizi də şərik eləmək məqsədilə onun gəlişi ilə əlaqədar yaranan hadisələri sizlərə çatdırmaq qərarına gəldik. Abbas Zamanov Azərbaycanın bu əsrdə yetişdirdiyi, böyük dövlət xadimi Məmməd Əmin Rəsulzadənin doğulduğu kənddən qırmızı qərənfillər, onun atasının qəbrindən də torpaq gətirmişdir. (Qeyd edək ki, həmin güllər və torpaq Novxanı kəndindən götürülmüş, qayğı ilə qorunaraq mənzil başına çatdırılmışdır). Onları təntənəli bir mərasimlə Məmməd Əmin Rəsulzadənin qəbrinə qoyaraq məqbərəni bəzədi, torpağı qəbrin torpağına qarışdırdı». Həmin anları xatırlayan Abbas Zamanov deyir: «Doğurdan, böyük dərddir. Azadlıq eşqi ilə yaşaya-

san, vuruşasan, ancaq öz torpağında dəfn olunmaq üçün yer tapmayasan». Dərdli, ələmli dəqiqələr davam edirdi. Yəqin ki, qəbrin üstündə göz yaşları axıdan qadının siması çox sonralar da unudulmayacaq. Sən demə qadının ulu babası Azərbaycandanmış. Bəli, qəriblərin fikri-zikri buradadır, Azərbaycandadır. Söhbətin bu yerində Əhməd Erçilasun təşəbbüsü ilə Ankara universitetində tələbələrlə keçirilmiş görüşdən bir epizodu xatırladı. Çıxış edən tələbə qız axırda kövrəlmiş şəkildə belə demişdi: «Xocam, mənim də dədəm Azərbaycandandır.». Qəriblərin yuxusunda da Vətən var deyib, atalar, Azərbaycan adı gələndə həyacandan od tutub yanan ürəklərin hərəsində Azərbaycan boyda bir vətən yerləşdiyini duymaq çətin deyilmiş. Gözləri yollarda dikilmiş belə qəriblər Vətəndən gələn hər kiçik xəbərə görə ovunur, təsəlli tapırlar. İndi bildim ki, - deyə söhbətinə davam edir Abbas müəllim, - göndərdiyim o kitablar, məktublar neçə-neçə niskilli ürəkdə ümid qığılcımına çevrilmişdir. Ona görə də əlaqələrimizi davam etdirməli, bu vacib işin daha səmərəli yollarını tapmalıyıq ki, baxışları daim uzaqlara dikilmiş qəriblər vətənsizlik yükünün altında əzilməsinlər.

Yenə də qayıdaq Səlcuq universitetində təşkil olunmuş təntənəli mərasimə. Fəxri diplomu təqdim edərkən Xəlil Cin demişdi: «Hörmətli qonaqlarımız, elm xadimlərimiz və gələcəyimizin təminatı istəkli tələbələrimiz. Konya Səlcuq universiteti Ali Şurası türk ədəbiyyatı aləminə gözəl əsərlər bəxş etmiş,

Türkiyə ilə Azərbaycan arasında sarsıdılmaz mədəni əlaqələrin yaradılmasında hər çətinliyi öz bacarığı ilə məğlub eliyən gözəl alim, professor Abbas Zamanova fəxri doktorluq diplomu vermək qərarına yetişdi. Təşkil etdiyimiz bu mərasimdə iştirak etmək üzrə Bakıdan qalxıb Konyaya gələn professor Abbas Zamanov hamımıza oradan xoşbəxtlik gətirib, səadət gətirib, bizim başımızı uca etmişdir».

Yeri gəlmişkən deyək ki, universitetin bu diplomu elm sahəsində abidələşən əsərlər yaradan alimlərə verilir. Fərəhli və sevincli haldır ki, onların sırasına bizim alimlərin adı da yazıldı. Lent yazısından aydın olur ki, mükafat təqdim edilərkən salonda alqışdan qulaq tutulurmuş. Oradakıların həyacandan az qala ürəkləri ağızlarına gəlirmiş. Tələbələrin söylədiyi sözlər dalğa-dalğa yayılıb oradakıların ürəyinə həkk olur, günəş şüaları kimi asimana yayılırmış: Özünə göstərilən bu sevgi və məhəbbət nümayişinə kiprik döymədən heyrətlə tamaşa eləyən Abbas Zamanov kürsüyə tərəf yeriyib minnətdarlıqla deyir: «Əziz qardaşlar, bacılar, əziz övladlarım! Gördüyünüz kimi, mən balaca bir kişiyəm. Lakin bura gələrkən sizlərə qarşı o qədər sevgi və məhəbbət gətirmişəm ki, o, bütün Türkiyəyə çatar. Əslində bu yığıncaq Azərbaycan türkləri ilə anadolu türkləri arasmdakı ədəbi-mədəni əlaqələrin yeni timsalı, yeni bir vasitəsidir.

Əziz qardaşlar, mən təvazö naminə yox, bir həqiqəti demək istəyirəm və inanın mənə ki, bunu ürəkdən deyirəm. Səlcuq universiteti mənim xidmət-

lərimə, mənim işlərimə son dərəcə yüksək qiymət vermişdir. Mən belə hesab edirəm ki, bu qiymət azəri türklərinin elmi, mədəni işlərinə verilən qiymətdir. Və mən bu hadisə üçün sizin hamınıza öz minnətdarlığımı bildirirəm. Hamınıza eşq olsun, tanrı türkü saxlasın».

Türkiyə görüşləri, hadisələri yəqin ki, uzun vaxt unudulmayacaq. Əhməd Erçilasunun ailəsindəki qonaqlıq, onun səfər zamanı göstərdiyi qayğı, Hacəttəpə universitetində tələbə və müəllimlərlə görüş, Atatürkün muzeyini, yüz min adamın birdən namaz qıldığı məscidi seyr etməsi Abbas müəllimin xatirəsində silinməz izlər buraxmışdır. Abbas müəllim, demək olar ki, Ankara və Konyanın bütün tarixi abidələrinə baxmışdır. Buna görə o, haqlı olaraq deyir ki, on gün davam etmiş Türkiyə səfəri hafizəmdə daim yaşayacaqdır. Bu səfər xalqlarımız arasındakı dostluq tellərinin daha da möhkəmlənməsində mühüm rol oynayacaqdır. Təbii ki, Abbas müəllim səfər zamanı fəaliyyət göstərdiyi sahə ilə əlaqədar daha çox məsələ ilə maraqlanmışdır. Biz də Türkiyədə yazıçılarımızdan kimin dərc olunmasını soruşduq.

Son dövrlər Azərbaycanda baş verən əlamətdar hadisələr türk dünyasında maraq və sevinclə qarşılanır. Elə mətbuatda da Azərbaycan ədəbiyyatı, tarixi, mədəniyyəti ilə bağlı tez-tez yazılar dərc edilir. Bu gün S.Vurğun, R.Rza, B.Vahabzadə, Ə.Cəfərzadə, İ.Şıxlı, N.Xəzri və başqa tanınmış yazıçılarımız tez-tez nəşr edilirlər. Klassiklərin yaradıcılığı isə ortaq

mənəvi xəzinədir. Füzuli, Qazi Bürhanəddin, Nəsimi, Xətai əsərləri də tez-tez işıq üzü görür. Alim dostlarımın dediklərinə görə həmin əsərlərin vitrinlərdə görünməyi ilə yoxa çıxmağı çox az çəkir. Ədəbiyyatımızla bağlı antologiya hazırlanır. Əli Yavuz Akpınarın nəşr etdirdiyi «Qardaş ədəbiyyatlar» jurnalı Azərbaycan şair və yazıçılarının əsərlərinin türk oxucularına çatdırılmasında böyük iş görmüşdür. Bir sözlə, Türkiyədə Azərbaycana sonsuz istək və məhəbbət gördüm.

Yəqin ki, səfər yeni ideyalar, yeni arzular da doğurmuşdur. - Bu həqiqətən belədir. Taleyin hökmü ilə dünyanın bir çox yerlərinə, eləcə də Türkiyəyə səpələnmiş, görkəmli şəxsiyyətlərimizin xalqımıza daha yaxından tanıdılması üçün hələ nə qədər iş görülməlidir. Onların fəaliyyəti, ədəbi əsərləri üzərinə çəkilmiş pərdə götürülməlidir. Bu məsələ ilə bağlı yeni fikirlər meydana çıxmışdır. Tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın bu qədər yaxınlığı, ümumi cəhətləri olduğu halda nəyə görə tələbə mübadiləsi etməyək? Türkiyə Mədəniyyət Nazirliyində olarkən bu barədə söhbət etdik. Türkiyəli yoldaşlar da bu məsələdə bizimlə yekdilidirlər. Həmkarlarım mənim də kitabımı nəşr etmək fikrindədirlər. Bunun üçün «Sabir gülür» əsərini çapa hazırlamaq istəyirəm. Arzular, fikirlər çoxdur. Təki sağlıq olsun.

**Təəssüratı qələmə aldı: Dilqəm ŞAHVERDİYEV.**
**«Azərbaycan müəllimi» qəzeti, 3 yanvar 1990-cı il**

# ELÇİN ABBAS ZAMANOV HAQQINDA BİBLİOQRAFİYA

**Həyat eşqi.**

**Bakı axşam qəzeti.** 1985 – 20 iyul.

**Qardaş ədəbiyyatlar.** Türkiyə. 1985. №11. Səh 12-14

**Abbas Zamanov. Sabir bu gün.** Ön söz və redaktor Elçin. Bakı. Gənclik 1985, 352 səh.

**“Bu fani dünyadan bir köç eylərəm ...”**

**Ədəbiyyat qəzeti.** 1993 – 09 aprel.

**“İşığa səsləyən sənət”**

**“Kommunist” qəzeti.** 22 sentyabr 1989-cu il.

**Seçilmiş əsərləri** 10 cilddə. Redaktor Dilsuz. Bakı – çinar Çap 2005. VII C. Səh. 470 – 474.

**“Ədəbiyyat və Cəsarət tərcümanı”**

**Önər.** - 2003 – №2. Səh 2 – 4.

**Ədalət qəzeti.** – 2003. 27 fevral.

**“525”-ci qəzet.** – 2003. 27 fevral.

**Seçilmiş əsərləri** 10 cilddə. Redaktor Dilsuz. Bakı – çinar Çap 2005. VII C. Səh 305-317.

**Abbas Zamanov, Seçilmiş əsərləri**. Tərtib edən: İsa Həbibbəyli. Ön söz: Elçin. Redaktor: Dilsuz. Bakı. Çinar Çap. 2003 – 316 səh

**Abbas Zamanov, Cənubdan səslər.** Toplayanı, tərtib edəni və ön sözün müəlifi Orxan

Seyidov. Redaktor: İsa Həbibbəyli. Bakı. Min bir mahnı. – 2010. 368 səh.

*Kitabda Elçinin Ədəbiyyat və Cəsarət Tərcümanı adlı məqaləsi çap olunmuşdur.*

**Müasirləri Abbas Zamanov haqqında.** Toplayanı, tərtib edən və ön sözün müəlifi İsa Həbibbəyli. Redaktor: Dilsuz. Bakı. Çinar Çap. 2003 – 333 səh.

*Kitabda Elçinin "Həyat eşqi" və "Ədəbiyyat və Cəsarət Tərcümanı" adlı məqalələri çap olunmuşdur.*

# ABBAS ZAMANOVUN HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

Abbas Fəttah oğlu Zamanov 10 oktyabr 1911-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Maxta kəndində anadan olmuşdur.

**1921-1927-ci illər** - Naxçıvan, sonra Bakı uşaq evlərində yaşamışdır.

**1928-1929-cu illər** - Pioner işində çalışmışdır.

**1929-cu il** - Tiflisdə Azərbaycan dilində çap olunan «Yeni kənd» qəzeti redaksiyasında tənqid-biblioqrafiya şöbəsində işləmişdir.

**01.IX.1929-10.X.1930-cu illər** - Həştərxanbazar rayonunun Üçtəpə kəndində müəllim işləyir.

**10.X.1930-13.IV.1931-ci illər** - Həştərxanbazar rayon komsomol komitəsinin katibi işləmişdir.

**13.IV.1931-10.VI.1931-cİ illər** - Əli Bayramlı rayon komsomol komitəsinin katibi

**10.VI. 1931-29.X.1931-ci illər** - Azərbaycan Mərkəzi İcra Komitəsində uşaq komissiyasının katibi.

**29.X.1931-01.I.1932-ci illər** - Qaraqala (sovxoz) komsomol komitəsinin katibi

**01.I.1932- 27.I.1933-cü illər** - Kirovabad (Gəncə) şəhər komsomol komitəsində şöbə müdiri.

**27.I.1933-10.VIII.1933-cü illər** - Azərbaycan LKGİ MK-da təlimatçı.

**10.VIII.1933-19.VIII.1935-ci illər** - «Gənc işçi» qəzetində məsul rcdaktor

**19.VIII.l935-02.VIII.1937-ci illər** - Azərbaycan LKGİ Naxçıvan vilayət komitəsində şöbə müdiri

**1937-1939-cu illər** - «Ədəbiyyat qəzeti»ndə məsul katib

**02.VIII.1937-20.I.1939-cu illər** - «Gənc bolşevik» qəzeti redaksiyasında məsul katib

**0l.VI.1938-20.XII-1938-ci illər** - Narkomprosun metodkabinəsində dərsliklər və dərs proqramları üzrə metodist.

**23.X.1937-20.I.1938-ci illər** - Təkminləşdirmə və Qiyabi Pedaqoji təhsil üzrə İxtisaslaşdırma institutunda nəşriyyat müdiri.

**20.I.1939-15.VI.1940-cı illər** - Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri.

**15.VI.1940-15.V.1941-ci illər** - Azərbaycan Dövlət Filarmoniyasının direktoru.

**1940-cı il.** M.F.Axundov adına Opera və Balet teatrının direktoru.

**1940-cı ildə.** Pedaqoji İnstitutu bitirib.

**1940-cı il aprel, 1941-ci il dekabr.** Qiyabi Pedaqoji İnstitutda Azərbaycan ədəbiyyatı kafedrasında ədəbiyyat nəzəriyyəsindən dərs deyib.

**1941-ci il dekabr** - Orduya çağrılır. «Döyüşən Krım» qəzetində əməkdaşlıq edir.

**23.I.1942-20.V.1942-ci illər** «Döyüşən Krım» qəzetində Azərbaycan redaksiyasında tərcüməçi işləyir.

**03.II.1947-ci il**. - Ordudan tərxis olunması haqqında əmr verilir.

**1948-ci il.** - Elmi-pedaqoji fəaliyyətə başlayır.

**1948-1960-cı illər.** ADU-da müəllim işləyir.

**1960-cı il - Sov.İKP sıralarından xaric edilir.**

**1960-1968-ci illər**. Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda kiçik elmi işçi.

**1968-1971-ci illər**. -Nizami adına Ədəbiyyat muzeyinin direktoru.

**1971-1979-cu illər** - ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri.

**1967-ci il 02 dekabr** - «M.Ə.Sabir və müasirləri» mövzusunda dissertasiya müdafiə etmiş, birbaşa filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

**1971-ci il 23 iyun.** - Professor elmi adı almışdır.

**1971-ci il 2 iyul.** - Türkiyə Dil Qurumuna üzv qəbul edilmişdir.

**1979-cu ildən ölənəcən.** - ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının professoru kimi fəaliyyət göstərmişdir.

**1980-cı il 14 mart.** Əməkdar elm xadimi adı almışdır.

**1982-ci il.** - Yazıçılar İttifaqının üzvü seçilmişdir.

**1983-cü il 30 iyul** - Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir.

**1989-cu il 27 aprel** - Konya (Türkiyə) Səlcuq Universitetinin fəxri doktoru.

**1993-cü il 1 aprel.** - Bakıda vəfat etmişdir. İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

# ABBAS ZAMANOVUN NƏŞR OLUNMUŞ KİTABLARI

**İrəli:** Cəbhə qeydləri. - Bakı: Azərnəşr, 1943.- 24 s.

**Abdulla Şaiq:** mühazirənin stenoqramı. - Bakı : Bilik, 1956.-22 s.

**Современники о Сабире** - автореферат. - Баку, 1965.

**Sabir və müasirləri** / red.: H.Araslı. - Bakı : Azəməşr, 1973.-283 s.

**Əməl dostları** / müqəd. B.Nəbiyev. - Bakı : Yazıçı, 1979.-372. s.

**Sabir gülür** / Ön söz, red.: H.Araslı. - Bakı Gənclik, 1985. - 260 s.

**Sabir bu gün** / Ön söz, red.:: Elçin. - Bakı : Gənclik, 1985. - 352 s.

**Cəbhə dəftərindən:** Oçerklər / Ön söz: B.Nəbiyev. - Bakı : Azərnəşr, 1986. - 96 s.

**Seçilmiş əsərləri** / A.Zamanov ; tərt.ed.: İ.Həbibbəyli; müqəd.: Elçin; red.: Dilsuz. - Bakı: Çinar- çap, 2003.-316 s.

**Cənubdan səslər** / topl., tərt.ed.: O.Seyidov; red.: İ.Həbibbəyli.-Bakı: Min bir mahnı. - 2010. – 368

**Bu dünyadan Rəsul Rza gəlib keçdi**: Tərtib edən və ön söz müəllifi. Orxan Seyidov, red: A.Əzimov. – Bakı, MBM, 2008

**Cəlil Məmmədquluzadə:** həyat və yaradıcılığı haqqında qısa oçerk. / fars dilinə tərcümə edən: Ə.Qəhrəmani. – Tehran-Əmir: 1975-75 s.

**Sabir və müasirləri.** / fars dilinə tərcümə edən Ə.Behrəngi. Təbriz: Şame. 1978-287 s.




**Abbas Zamanov. Cənubdan səslər.**
**tərtib edən: Orxan Seyidov;**
**redaktor: İsa Həbibbəyli.**
**Bakı, "Min bir mahnı" – 2010, 368s**




**Abbas Zamanovun 100 illik yubileyinə həsr olunmuş "Müasir Azərbaycan filologiyası: axtarışlar, problemlər, perspektivlər" mövzusunda Respublika elmi konfransının materialları**
**Bakı, "Elm və Təhsil" – 2011, 776 səh**




**Müasirləri Abbas Zamanov haqqında.**
**Toplayanı, tərtib edən və ön sözün müəllifi: İsa Həbibbəyli.**
**Redaktor: Dilsuz.**
**Bakı, "Çinar" Çap – 2003, 333 səh.**




**Abbas Zamanov. Biblioqrafiya.**
**Tərtib edənlər Aybəniz Əliyeva-Kəngərli və Validə Həsənova.**
**Redaktorlar: Nəriman Seyidəliyev, İsmət Səfərov**
**Bakı, "Elm" – 2012**




**Abbas Zamanovun məzarı**
**Bakı şəhəri 2-ci fəxri xiyaban**

# ABBAS ZAMANOVUN TƏRCÜMƏLƏRİ

**Məmmədquluzadə Həmidə. Mirzə Cəlil haqqında xatirələrim;** / mətni nəşrə hazırlayan, tərcümə, müqəddimə və şərh Abbas Zamanov: Redaktor Həmid Araslı. Bakı. Azərnəşr. 1967. 212 s.

**Mareev M. Sosializim vətəni keşiyində** / red.: H.Şərifov. - Bakı: Azərnəşr, 1939-78 s.

**Məmmədquluzadə H. Mirzə Çəlil haqqında xatirələrim** / tərc. və şərh.: A.Zamanov; red.: B.Abdulayev. - Bakı: Gənclik, 1981.- 155 s.

**Jurba P. Aleksandr Matrosov**: povest. – Bakı: Uşaqgəcnəşr, 1951.-248 s

# KİNO SSENARİLƏRİ

## 1942

**Bəxtiyar:** Qısametrajlı bədii film // ssenari müəllif.: Ə.Məmmədxanlı, A.Zamanov.- Azərbaycan: Bakı Kinostudiyası, 1942.- 2 hissəli.- rus dilində

*Kinonovella Azərbaycan xalqının cəsur oğlu, döyüşçü Bəxtiyar Kərimovun cəhbədə göstərdiyi qəhrəmanlığına həsr olunmuşdur.*

## 1949

**Sovet Naxçıvanı - Şərqin qapısı:** Qısametrajlı bədii film // ssenari müəllif.: H.İbrahimov, M.Rəhman, A.Zamanov,- Azərbaycan: Bakı Kinostudiyası, 1949.- 1 hissə

*Film Azərbaycanın tərkib hissəsi olan qədim Naxçıvan torpağına, Muxtar Respublikanın yaradılmasının 25 illiyinə həsr olunmuşdur.*

# ABBAS ZAMANAOVUN RUS DİLİNDƏN TƏRCÜMƏ ETDİYİ KİNOSSENARİLƏRİN ADLI SİYAHISI

1. Adaxlıların sui-qəsdi.
2. Ayrılmaz dostlar.
3. Albaniyanın dahi döyüşçüsü İsgəndər bəy.
4. Ancaq heykəllər susurlar.
5 .Balıqçı və balıq haqqında nağıl.
6. Bahar üçün təşəkkür edirəm.
7. Bəlkə bu sevgi oldu?
8. Bir rayonda.
9. Vasili Bortnikovun qayıtması.
10. Qərb zonası.
11. Qlinka
12. Qonaqları qarşılama.
13. Qoca Amirin kələyi
14. Qızıl buğda.
15. Daş üzərində çiçək
16. Dəcəl.
17. Dunayevskinin mahnıları
18. Etibarlı dostlar.
19. Əsrin yaşıdı.
20. İvanın uşaqlığı.
21. İdman ləyaqəti.
22. İki qəpiklik həyat.
23. İki həyat.
24. İtirilmiş vaxtın nağılı.

25. Kənd düşməni.
26. Konstantin Zaslonov
27. Kotovski.
28. Körpüsalanlar.
29. Gəmilər qalaya hücum edirlər.
30. Gizli missiya.
31. Göy şamlığın sirri.
32. Yolda vuruşma.
33. Mayallaq.
34. Mənim də başım var.
35. Miçurinin yolları ilə.
36. Oğlumuzun evlənmək vaxtıdır.
37. Onların da vətəni var.
38. Pavlov. (akademik)
39. Prjevalski.
40. Sabah gəlin.
41. Satko.
42. Sakit günlər.
43. Sarı leylək.
44. Səhra üzərində səma.
45. Sibir torpağı haqqında nağıl.
46. Tavriya.
47. Tarixin dərsləri.
48. Təmiz səma.
49. Tənha yelkən acıyır.
50. Üçüncü zərbə.
51. Şevçenko.
52. Şübhə edən adam.
53. Çağırılmamış qonaqlar

54. Çar Soltan və Bahadır haqqında ballada.
55. Halal çörəyimiz.
56. Hardasa oğlum var.

# KİTABIN MÜƏLLİFİ HAQQINDA



**Elçin sadiq oğuldur, gözü açıq igiddir. Azərbaycan ədəbiyyatını yalnız respublika ölçüsündə deyil, dünya ölçüsündə araşdırır.**

**Abbas Zamanov**
**professor, AEA-nın müxbir üzvü**

**1943** -Elçin Əfəndiyev may ayının 13-də Bakı şəhərində, XX əsr Azərbaycan ədəbiyyatı klassiki, Xalq yazıçısı İlyas Əfəndiyevin ailəsində anadan olmuşdur.

**1950** - Orta məktəbin birinci sinfinə daxil olmuşdur.

**1959** -"O inanırdı" adlı ilk hekayəsi "Azərbaycan gəncləri" qəzetində dərc edilmişdir.

**1960** -Orta məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur.

**1965** - Ali təhsilini başa vurmuşdur.

**1965-1969**- Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuşdur.

**1966** -"Min gecədən biri" adlı ilk hekayələr kitabı Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən nəşr edilmişdir.

**1967** - İlk dəfə xarici ölkəyə səfər etmişdir. Bundan sonra Türkiyə, ABŞ, Fransa, Almaniya, Hollandiya, Çin, Belçika, Lyuksemburq, İsveç, İsveçrə, Danimarka, Çexiya, Avstriya, Slovakiya, İran, Qana, Liviya, Yuqoslaviya, Bolqarıstan, Benin, İraq, İngiltərə, Səudiyyə Ərəbistanı, Rumıniya, Macarıstan, Xorvatiya, Tunis, İspaniya, Pakistan, İrlandiya, Yunanıstan, Polşa, Monako, Sloveniya, Serbiya, Birləşmiş Ərəb Əmirlikləri və digər

ölkələrdə, eləcə də keçmiş SSRİ respublikalarında müxtəlif ədəbi, elmi, siyasi görüşlərin, simpoziumların, konfransların, eləcə də BMT sessiyalarının iştirakçısı olmuş, məruzə və çıxışlar etmiş, rəsmi dövlətlərarası danışıqlar aparmış, xarici dövlət başçılarının inaqurasiya mərasimlərində iştirak etmişdir.

**1968** - SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilmişdir.

**1969** - Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" şöbəsində kiçik elmi işçi vəzifəsində işləmişdir.

**1970** - Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün "Azərbaycan bədii nəsri ədəbi tənqiddə (1945-1965)" mövzusunda dissertasiya müdafiə etmişdir. Bundan sonra müxtəlif illərdə 400-dən çox məqalə yazmışdır.

Əsas elmi monoqrafiyaları: "Tənqid və nəsr", "Üzeyir Hacıbəyovun publisistikası", "Klassik aşıq poeziyasında "dünya" obrazı", "Ədəbiyyatda tarix və müasirlik problemi", "Sosialist realizmi bizə nə verdi?" və s.

**1971** - "Beş qəpiklik motosikl" adlı hekayəsi görkəmli rus tənqidçisi İqor Zolotuskinin tərcüməsində ilk dəfə Moskva mətbuatında "Drujba narodov" jurnalında nəşr olunmuşdur. Bundan sonra bir çox hekayə və povestləri, Azərbaycan ədəbiyyatının, eləcə

də dünya ədəbiyyatının problemlərinə həsr olunmuş onlarla məqalələri o zamankı Ümumittifaq mətbuat orqanlarında, o cümlədən "Literaturnaya qazeta", "Komsomolskaya pravda", "Pravda", "Nedelya", "Literaturnaya Rossiya", "Yunost", "Smena", "Sovetskaya literatura" (xarici dillərdə), "Voprosı literaturı", "Literaturnoe obozreniye", "Rabotnitsa", "Vesyolıye kartinki", "Detskaya literatura", "Literaturnaya uçyoba" və s. kimi nüfuzlu qəzet və jurnallarda dərc olunmuşdur.

**1972** -Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" şöbəsində baş elmi işçi vəzifəsində işləmiş, eyni zamanda Nəsimi adına Dilçilik və Nizami adına Ədəbiyyat İnstitutlarının Birləşmiş Müdafiə Şurasının elmi katibi olmuşdur.

**1973** -Ədəbi tənqidin problemlərindən bəhs edən məqaləsi Moskvada nəşr olunan "Drujba narodov" jurnalının "İlin ən yaxşı məqaləsi" mükafatını almışdır;

- Ssenarisi əsasında "Baladadaşın ilk məhəbbəti" qısametrajlı bədii filmi çəkilib. Sonralar ssenariləri əsasında "Arxadan vurulan zərbə" (1978, quruluşçu rejissoru Arif Babayev), "Mən hələ qayıdacağam" (1981,quruluşçu rejissoru Kamil Rüstəmbəyov), "Gümuşü furqon" (1981, quruluşçu rejissoru Oqtay Mirqasımov), "Bağ mövsü-

mu" (1986, quruluşçu rejissoru Tofiq Tağızadə), "Sahilsiz gecə" (1989, quruluşçu rejissoru Şahmar Ələkbərov), "Milli bomba" (2002, quruluşçu rejissor Vaqif Mustafayev), "Hökmdarın taleyi" (2008, iki seriyalı, quruluşçu rejissorlar Ramiz Fətəliyev, Dilşad Fatxulin), eyniadlı romanı əsasında "Mahmud və Məryəm" (2013, quruluşçu rejissoru Mehmet Ada Öztekin) adlı tammetrajlı bədii filmləri, eləcə də sənədli və cizgi filmləri çəkilmişdir.

**1975** - Moskvanın "Molodaya qvardiya" nəşriyyatı "Baladadaşın ilk məhəbbəti" adlı hekayələrdən ibarət rus dilində ilk kitabını nəşr etmişdir;

-"Ədəbiyyat və incəsənət" qəzeti redaksiya heyətinin üzvü seçilmişdir. Müxtəlif illərdə bir çox qəzet, jurnal və ədəbi-elmi nəşrlərin redaksiya heyətlərinin, eləcə də bir çox nüfuzlu respublika, keçmiş ümumittifaq və beynəlxalq ədəbi, elmi, ictimai-humanitar təşkilatların, cəmiyyətlərin, birliklərin, onların rəhbər qurumlarının üzvü seçilmişdir;

- Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin katibi seçilmişdir.

**1977** - "Talvar" hekayəsi "Smena" jurnalının (Moskva) "İlin ən yaxşı hekayəsi" mükafatını almışdır.

**1979** - Ukrayna-Azərbaycan ədəbi əlaqələrinin inkişafındakı xidmətlərinə görə Ukrayna Respublikası Ali Sovetinin "Fəxri fərmanı" ilə təltif edilmişdir.

**1980** - "Poçt şöbəsində xəyal" tragikomediyası Şəki Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. Bundan sonra Elçinin "Ah, Paris, Paris!...", "Mən sənin dayınam", "Mənim sevimli dəlim", "Mənim ərim dəlidir", "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü", "Şuşa dağlarını duman bürüdü", "Qatil", "Şekspir", "Arılar arasında", "Cəhənnəm sakinləri", "Teleskop", "Sənətkarın taleyi" və s. kimi pyesləri Azərbaycan və xarici, o cümlədən London, Moskva, Sankt-Peterburq, Ankara, İstanbul, Konya, Ərzurum, Krım, Kipr və s. ölkələrin teatrlarında böyük uğurla tamaşaya qoyulmuşdur.

**1982** - Moskvada 235 min tirajla nəşr edilmiş "Əncir ağacı" hekayə və povestlər kitabına görə SSRİ Lenin Komsomolu mükafatına layiq görülmüşdür;

-"Baladadaşın toy hamamı" hekayəsi SSRİ Yazıçılar İttifaqının, eləcə də "Nedelya" jurnalının (Moskva) "İlin ən yaxşı hekayəsi" mükafatını almışdır.

**1983** - İlk romanı "Mahmud və Məryəm" "Yazıçı" nəşriyyatında çapdan çıxmışdır;

- “Literaturnaya qazeta”nın “Ən fəal müəllif üçün” mükafatını almışdır.

**1984** -“Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülmüşdür;

- “Beş dəqiqə və əbədiyyət” hekayəsi ikinci dəfə “Smena” (Moskva) jurnalının “1984-cü ilin ən yaxşı hekayəsi” mükafatını almışdır.

**1985** - “Ağ dəvə” adlı ikinci romanı “Yazıçı” nəşriyyatında nəşr edilmişdir.

**1986** - “Şərəf nişanı” ordeni ilə təltif olunmuşdur.

**1987** - İki cildlik “Seçilmiş əsərləri” Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən nəşr olunmuşdur;

- Yeni təsis edilmiş Xaricdə yaşayan həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyəti – “Vətən” Cəmiyyəti Rəyasət Heyətinin sədri seçilmişdir.

**1988** - Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

**1989** -“Ölüm hökmü” romanı “Yazıçı” nəşriyyatı tərəfindən nəşr olunmuş və ədəbi ictimaiyyətin yüksək qiymətini qazanmışdır.

**1990** - Azərbaycan SSR-də Dövlət Dili Haqqında Qanun Layihəsinin Hazırlanması ilə Əlaqədar Dövlət Komissiyasının tərkibinə daxil edilmişdir.

**1993** **-Azərbaycan Respublikasının Baş nazirinin müavini vəzifəsinə təyin edilmişdir.**

**1994** -Məkkədə müqəddəs Kəbəni, Mədinədə Həzrəti Məhəmməd peyğəmbərin məzarını ziyarət etmişdir;

-"Literaturnaya qazeta"nın ədəbi həyatında aktiv iştirakına görə Çingiz Aytmatov, Bella Axmadulina, Yevgeni Yevtuşenko, Fazil İsgəndər, Bulat Okutjava kimi müəlliflərlə bərabər qəzetin "Xüsusi mükafatı"nı almışdır.

**1995** -Məhəmməd Füzulinin qəbrini və müqəddəs Kərbəlanı ziyarət etmişdir;

-Azərbaycan Respublikasının Yeni Konstitusiya Layihəsini Hazırlayan Komissiyanın tərkibinə daxil edilmişdir.

**1997** - "Ədəbiyyatda tarix və müasirlik problemi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

**1998** -"Xalq yazıçısı" fəxri adına layiq görülmüşdür;

- Baş nazirin müavini, "Vətən" Cəmiyyəti Rəyasət Heyətinin sədri vəzifələrində çalışmaqla bərabər, Bakı Dövlət Universitetinin professoru kimi də fəaliyyət göstərməyə başlamışdır.

**1999** - Parisdə YUNESKO-nun keçirdiyi "Dədə Qorqud" simpoziumuna sədrlik etmişdir.

**2002** - Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının xüsusi sammit-sessiyasında Azərbaycan Respublikası Prezidentinin şəxsi nümayəndəsi kimi iştirak və çıxış etmişdir;
-"Drujba narodov" jurnalı Redaksiya Şurasının üzvü seçilmişdir;
-Türkiyə Cümhuriyyəti Yayın Araşdırmalar Mərkəzinin "Türk Dövlətləri Toplulukları Ödülü"nü almışdır.

**2003** - Azərbaycan Respublikasının ən yüksək mükafatı - "İstiqlal" ordeni ilə təltif edilmişdir;
- Kipr, Balkanlar, Avrasiya Türk Ədəbiyyatları Qurumunun (KİBATEK) "2002-ci il Türk Ədəbiyyat Ödülü"nü almışdır;
- Türkiyə Cümhuriyyəti "Yeditəpə Universitetinin fəxri doktoru" seçilmişdir;
- Türkiyə Cümhuriyyəti Memar Sinan Universitetinin "Xüsusi Ödül"ünü almışdır;
- Türkiyə Cümhuriyyəti Fateh Universitetinin "Xüsusi Ödül"ünü almışdır.

**2007** -Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəlin təqdimatı ilə "Türk dünyasına xidmət" mükafatına layiq görülmüşdür;

**2008** - İstanbul da "First Business"in "Zirvədəkilər-2008" ödülünə layiq görülmüşdür.

**2011** -İstanbul Kültür Universitetinin fəxri doktoru seçilmişdir.

# MÜNDƏRİCAT

ƏDƏBİYYAT VƏ CƏSARƏT TƏRCÜMANI ................................3
İŞIĞA SƏSLƏYƏN SƏNƏT .........................................................84
O, BEYNƏLMİLƏLÇİ «MİLLƏTÇİ»DİR .....................................94
MƏHƏBBƏT DOLU ÜRƏK GƏTİRMİŞƏM ..............................106
ELÇİN ABBAS ZAMANOV HAQQINDA BİBLİOQRAFİYA ..115
ABBAS ZAMANOVUN HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ.....................................................................................117
ABBAS ZAMANOVUN NƏŞR OLUNMUŞ KİTABLARI.........120
ABBAS ZAMANOVUN TƏRCÜMƏLƏRİ .................................127
KİNO SSENARİLƏRİ ..................................................................128
ABBAS ZAMANAOVUN RUS DİLİNDƏN TƏRCÜMƏ ETDİYİ KİNOSSENARİLƏRİN ADLI SİYAHISI....................................129
KİTABIN MÜƏLLİFİ HAQQINDA .............................................132

# ƏFƏNDİYEV ELÇİN İLYAS OĞLU

# “Ədəbiyyat və cəsarət tərcümanı Abbas Zamanov”

**Naşir: Adil Abdullayev**
***Əməkdar mədəniyyət işçisi***

**Dizayner: Səməndər Namazov**
**Korrektor: Səməd Eyvazov**
**Opeator: Səməd Eyvazov**

Kitab hazır depozitivlərdən istifadə edilərək
“Gənclik” nəşriyyatında çap edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və
Turizm Nazirliyi “Gənclik” nəşriyyatı

Çapa imzalanmışdır: 23.11.2016
Kitabın formatı: 60x84 1/16. Həcm: 9 ç.v.
Sifariş: 20. Tiraj: 100

Ünvan: Mətbuat prospekti, 529-cu məh.
Tel: (050) 689-09-99
(055) 422-42-82




**Abbas Zamanovun anadan olmasının 100 illiyi münasibəti ilə çap edilmiş poçt markası**

# Elçin



Elçin Əfəndiyev 1943-cü il may ayının 13-də Bakı şəhərində, XX əsr Azərbaycan ədəbiyyatı klassiki, Xalq yazıçısı İlyas Əfəndiyevin ailəsində anadan olmuşdur.

Pyesləri Azərbaycan və xarici, o cümlədən London, Moskva, Sankt-Peterburq, Ankara, İstanbul, Konya, Ərzurum, Krım, Kipr və s. ölkələrin teatrlarında böyük uğurla tamaşaya qoyulmuşdur.

Ssenariləri əsasında “Arxadan vurulan zərbə”, “Mən hələ qayıdacağam”, “Gümüşü furqon”, “Bağ mövsümü”, “Sahilsiz gecə”, “Milli bomba”, “Hökmdarın taleyi”, “Mahmud və Məryəm” adlı tammetrajlı bədii filmləri, eləcə də sənədli və cizgi filmləri çəkilmişdir.

Elçin Ədəbiyyat və Cəsarət Tərcümanı - Abbas Zamanov